

Milli azadlıqdan
şirin nemət yoxdur!

# Şərəfli missiya




YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

24 noyabr 2024-cü il, bazar
№ 216 (6802)
Qiymәti 60 qəpik


## Sülh yaxındadır...



Bax səh. 2

## COP29-da mühüm mövzular müzakirə olunub




Bax səh. 2

## Azərbaycan ən yüksək reytinq balına layiq görülüb

Bax səh. 5

## Milli Məclisin Qərbi Azərbaycana Qayıdış üzrə Təşəbbüs Qrupu bəyanat yayıb

Azərbaycan Respublikası Milli Məclisinin Qərbi Azərbaycana Qayıdış üzrə Təşəbbüs Qrupu bəyanat yayıb.

Bəyanatda deyilir ki, Ermənistanın baş naziri Nikol Paşinyanın Qərbi Azərbaycan məsələsini və uydurma "Qərbi Ermənistan" anlayışı arasında paralel aparmaq cəhdi qəbuledilməzdir. Qərbi Azərbaycan məsələsi etnik təmizləməyə məruz qalmış azərbaycanlıların Ermənistana dinc, təhlükəsiz və ləyaqətli şəkildə qayıdışına xidmət edən insan hüquqları mövzusudur. "Qərbi Ermənistan" ifadəsi isə Ermənistanın Konstitusiyası və digər əsas sənədlərində və siyasi addımlarında öz əksini tapmış ərazi iddiasıdır.

Vurğulanır ki, baş nazirin ən azı sözdə uydurma "Qərbi Ermənistan" anlayışını sual altına alması, "mifik Ermənistandan real Ermənistana keçmək" barədə bəyanatları, əslində, çoxdan atılmalı olan addımlardır. Lakin bu, etnik təmizləməyə məruz qalmış Qərbi azərbaycanlıların sülh yolu ilə öz evlərinə qayıtmaq hüququ hesabına...



Bax səh. 4




Bax səh. 5

## ICAPP-ın 12-ci Baş Assambleyası başa çatıb

## Şəhər günün mübarək, doğma Kəlbəcər!

Böyük zəfərlərimizlə başa çatan 44 günlük Vətən müharibəsindən və 23 saatlıq lokal xarakterli antiterror tədbirlərindən sonra müstəqil Azərbaycanın həyatına yeni əlamətdar günlər daxil olub. Prezident İlham Əliyevin müvafiq sərəncamları ilə işğaldan azad olunmuş ərazilər üzrə şəhər günlərinin təsis edilməsi də bu sırada yer alır.

Noyabrın 25-i Kəlbəcər Şəhəri Günüdür. Azərbaycanın dilbər guşələrindən olan Kəlbəcər məhz 25 noyabr 2020-ci il tarixində işğaldan azad olunub - üçtərəfli bəyanatın şərtlərinə uyğun olaraq döyüşsüz Azərbaycana təhvil verilib.

**İşğaldan azad olunmuş ərazilər üzrə şəhər günləri**

Vətən müharibəsində işğaldan azad edilən ərazilərin hər qarışı bizim üçün son dərəcə əzizdir. Biz düz otuz il ərzində yurd yerlərimizə, doğma kəndlərimizə, şəhərlərimizə qayıtmağın həsrəti ilə yaşamışıq. 44 günlük müharibədə və 23 saatlıq lokal xarakterli antiterror tədbirlərində şanlı Ordumuzun şücaəti ilə əldə olunan böyük qələbələr sayəsində bu həsrətə son qoyulub və ölkəmizin ərazi bütövlüyü, suverenliyi təmin olunub.

Xalqımızın işğaldan azad olunan ərazilərə böyük bağlılığı var. Prezident İlham Əliyevin...




Bax səh. 4

## Beşinci sosial islahat paketi

2025-ci ilin dövlət və icmal büdcələrində nəzərdə tutulan artımlar sosial çağırışlara cavab verməklə, növbəti sosial paketin icrası üçün güclü maliyyə təminatı yaradır. Dövlət büdcəsində növbəti il üçün sosialyönümlü xərclərin həcmi 16,9 milyard manat məbləğində müəyyən edilib ki, bu, əvvəlki illə nisbətdə 1 milyard...

Bax səh. 5

## NATO Baş katibi Türkiyəyə gəlir...

Noyabrın 25-də NATO-nun Baş katibi Mark Rutte Türkiyəyə səfər edəcək. Bu barədə alyansın mətbuat xidməti məlumat yayıb. Bildirilib ki, blokun başçısı Ankarada Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan, habelə xarici...

Bax səh. 5

## Bayden III Dünya müharibəsinin "müəllifi" olacaq?



Bax səh. 7

## "Asiya NATO-su" müzakirəyə çıxarılır



Bax səh. 7

# Aİ missiyası "gedir" - Zəngəzur dəhlizi açılır

Cənubi Qafqaz bölgəsinin sabit və daimi inkişaf mərhələsinə qədəm qoyması istiqamətində yürütdüyümüz siyasət öz bəhrəsini verməkdədir. Ölkəmizin sülh təşəbbüsləri və onun nəticələri istər regiona, istərsə də regionətrafı coğrafiyaya mühüm üstünlüklər vəd edir. Aparılan uğurlu xarici siyasət kursu Mərkəzi Asiya, Cənubi Qafqaz, Kiçik Asiya, hətta Rusiya və İran üçün mühüm siyasi-iqtisadi dividendlər yaradır. Bu mənada, Cənubi Qafqazın prosesdə oynayacağı rol xüsusi qeyd edilməlidir - bir zamanlar kataklizmlərlə, münaqişələrlə xarakterizə edilən region bu gün əməkdaşlıq məkanı, sabitlik adası hesab olunur. Təsadüfi deyil ki, ölkəmizdə keçirilən COP29 çərçivəsində baş tutmuş bir çox panel iclaslarında ölkəmizin sülhpərvər mövqeyi, regionun iqtisadi inkişafı üçün həyata keçirdiyi strateji yol xəritəsi təqdir olunub.

Bu fəaliyyətin daha qabarıq şəkildə nəticə verməsi üçün isə bir məqam xüsusi əhəmiyyət daşıyır - bölgədə təhlükəsizliyin təmini üçün əbədi sülh ən vacib şərt kimi meydana çıxır. Sülh prosesinin indiki məqamında isə nəticəyə yaxınlıq hiss edilməkdədir - bu istiqamətdə müzakirələr daha da intensivləşib. Verilən açıqlamalar da onu göstərir ki, sülh çox uzaqda deyil.







## Sülh üçün əsas şərtlər...

Yeri gəlmişkən, Ermənistanın baş naziri Nikol Paşinyan ölkəsinin İctimai Televiziyasına müsahibəsində Azərbaycanla müqavilənin ilin sonuna qədər imzalanması üçün hər şeyi edəcəyini bildirib. Erməni baş nazirin bu açıqlaması özlüyündə bəzi mətləblərdən də xəbər verir - o baxımdan ki, həm Paşinyan, həm də Ermənistanın digər siyasi rəhbərləri anlayırlar ki, Azərbaycanın şərtlərinə əməl edilməyəcəyi təqdirdə sülhdən söhbət belə gedə bilməz - ölkəmizin dəyişməz tələbləri hələ də öz qüvvəsindədir. Sülh üçün ən vacib şərt Ermənistanın uzun illərdir ki, davam edən əsassız iddialarından geri çəkilməsi, paralel olaraq ATƏT-in Minsk qrupunun ləğvi ilə bağlı mövqeyini açıqlamasıdır. İrəvan yalnız rəsmi şəkildə konstitusiyasında dəyişiklik etməklə sülh prosesinin ardıcıllığını təmin edə bilər - bu, gələcək kataklizmlərin yaranması ehtimalını da indidən aradan qaldırmış olur. Ermənistan Konstitusiyasını dəyişmədikcə bu ölkənin Azərbaycana qarşı ərazi iddialarının hər an eskalasiyaya çevrilmə təhlükəsi var.

ATƏT-in Minsk qrupunun ləğvi ilə bağlı bəyanata gəldikdə isə, bu məsələdə real olaraq Ermənistanın manipulyasiyalardan əl çəkməsi üçün ən vacib məqamlardandır. Bəlli olduğu kimi, artıq tarixə qovuşmuş "münaqişə"nin tənzimlənməsində vasitəçi kimi çıxış etməli olan ATƏT-in Minsk qrupu özünün "missiyasını" başa vurub - "münaqişə" bitdiyi üçün bu qrupa da ehtiyac qalmayıb. Azərbaycan özünün ərazi bütövlüyünü və suverenliyini bərpa etməklə bu problemi həll etdi. Paralel olaraq məsələ beynəlxalq gündəlikdən də düşüb. Belə olan halda Minsk qrupunun fəaliyyətinə hər hansı bir ehtiyac da qalmayıb...

## İrəvan Aİ-yə "qapı göstərdi"

5 aprel üçtərəfli bəyannaməsi ilə Qərbə arxayın olan Paşinyanın oxu daşa dəydi - artıq nə Avropa Birliyi, nə də ABŞ İrəvana müsbət gələcək vəd edə bilmir. Azərbaycanla münasibətləri normallaşdırmanın prioritet olaraq seçilməsi faktoru həm də buradan qaynaqlanır. Təsadüfi deyil ki, Paşinyan ölkəsinin İctimai kanalına müsahibəsində Ermənistanın Azərbaycana Avropa İttifaqı missiyasının delimitasiya olunacaq ərazidə fəaliyyət göstərməyəcəyini təklif edib. Onun sözlərinə görə, danışıqlar prosesində müəyyən müsbət irəliləyişlər var. "Əgər biz həqiqi sülhə nail olsaq, sülh müqaviləsi imzalasaq, Ermənistan qarşılıqlı prinsip əsasında Azərbaycana qarşı beynəlxalq iddialardan imtina etməyə hazırdır", - o vurğulayıb.

Beləliklə, Aİ-nin mssiyasının yaxın gələcəkdə geri qayıtması perspektivi günü-gündən artır. Artıq onların Erəmnistanda qalmasının heç bir müsbət üstünlük vəd etmədiyini dəqiqləşdirən Paşinyan Aİ missiyasına "qapını göstərir". Mərhələli şəkildə ən qısa zamanda Ermənsitanı tərk edəcək Aİ missiyasının gedişi ilə isə əsasən Fransanın regiona müdaxilə və təzyiq imkanları minimuma enəcək.

## Paşinyandan sülh açıqlaması...

Təbii ki, Ermənistan hazırki qlobal prosesləri görür və dəyərləndirir. İqtisadi çətinliklərin girdabından qurtula bilməyən İrəvan xarici ianələrdən də ümidini üzüb - Ermənistana illərlə pul göndərən regionların başı özünə qarışıb. Fransa ətrafında inkişaf edən müharibə ssenarisindən uzaq qalmaq üçün "baş sındırır". Eyni zamanda, Makron hakimiyyəti ölkədəki iqtisadi geriləmənin təzahürü kimi meydana çıxan etiraz aksiyalarının əlində çarəsiz qalıb. Hətta Makronun "impiçment" məsələsi yenidən qaldırılır. ABŞ-ın hazırki hakimiyyətinin başı isə son 2 ay üçün Ukrayna müharibəsini daha da genişləndirməyə qarışıb - Bayden və komandası üçün indiki halda Ermənistan heç bir xüsusi məna kəsb etmir.

Beləliklə, Ermənistan iqtisadi-sosial çətinliklərlə üz-üzə qalıb. Bunun



## Xarici ianələr kəsilir - Ermənistan sosial mənganədə...

nəticəsidir ki, Ermənistan hökuməti 2025-ci ildən etibarən Qarabağdan Ermənistana öz xoşu ilə köçmüş insanların mənzil müavinəti ödənişlərini tamamilə dayandırmağı, digər kateqoriyaya aid olanlara isə müavinətlərin məbləğini azaltmağı planlaşdırır. Ermənistan mediasının yazdığına görə, qərar Ermənistan büdcəsində artan kəsir və sosial proqramlara ayrılan maliyyə vəsaitlərinin çatışmazlığı ilə əlaqələndirilir. Hazırda Ermənistanda minlərlə Qarabağdan gəlmiş ailə müavinət hesabına yaşayır və bu qərarın onların həyat səviyyəsinə ciddi təsir göstərəcəyi gözlənilir.

Göründüyu kimi, artıq Ermənistan hakimiyyəti əsl reallıqlarla üzləşib - xarici ianələrə arxayınlıq mərhələsi başa çatıb. İndiki halda sosial layihələri ləğv etməklə işin içindən çıxmağa çalışan Paşinyan və komandası yaxın gələcəkdə onları gözləyən vəziyyəti görür və dəyərləndirir. Paşinyanın sülhlə bağlı müsbət anonslar səsləndirməsinin bir səbəbi də məhz bu amildir. Paşinyan dərk edir ki, yaxın gələcəkdə daha da güclənmə ehtimalı olan sosial narazılıq nəticədə sosial partlayışa səbəb ola bilər - bu isə, hakimiyyət çevrilişinə qədər uzanma ehtimalı formalaşdırır...




## Zəngəzur dəhlizi reallaşır - seçim Ermənistanındır...

Ermənistanın ortada olan iqtisadi dividendlərdən yararlanma imkanları öz əlindədir - İrəvan Zəngəzur dəhlizi ilə bağlı üzərinə götürdüyü öhdəliyə riayət edəcəyi təqdirdə daha yüksək iqtisadi imkanlar əldə edəcək. Vurğulayaq ki, dəhlizin fəaliyyətə başlaması perspektivində regionun tranzit imkanları daha da genişlənəcək. Son illərdə Azərbaycan Avrasiyanın yeni nəqliyyat xəritəsini formalaşdırıb və hazırda bu geniş coğrafiyanın bütün əsas yolları məhz ölkəmizdə kəsişir. Zəngəzur dəhlizi bu bağlantıda yeni və çox mühüm halqa təşkil edəcək. Dəhliz boyunca yaradılacaq dəmir və avtomobil yolları məhz ölkəmizin ərazisində Şərq-Qərb və Şimal-Cənub marşrutlarına inteqrasiya ediləcək. Azərbaycanın Xəzərdə qurduğu ən böyük limanın, həmçinin işğaldan azad edilmiş ərazilərdə inşa olunan 3 beynəlxalq səviyyəli aeroportun yaradacağı imkanları da nəzərə alsaq, belə bir qənaət ifadə edə bilərik: Zəngəzur dəhlizi beynəlxalq səviyyədə daşımalar üçün ən cəlbedici marşrutlardan birinə çevriləcək və respublikamız perspektivdə etibarlı tranzit ölkə kimi bundan böyük həcmlərdə gəlirlər əldə edəcək.

Eyni zamanda, Zəngəzur dəhlizinin yaradılması digər region dövlətləri, xüsusilə Ermənistan üçün olduqca vacibdir. Şərq-Qərb və Şimal-Cənub magistral xəttinin qovşağında yerləşən Azərbaycanın yaratdığı imkanlarla Ermənistan da özünün iqtisadi imkanlarını inkişaf etdirə biləcək.

Ermənistan nə qədər təkzib etsə də, layihənin reallaşması ehtimalı yüksəkdir. Türkiyənin nəqliyyat və infrastruktur naziri Əbdülkadir Uraloğlu jurnalistlərə açıqlamasında bildirib ki, Ermənistan tarixi şansı qaçırsa, bu, Bakının planlarına heç bir təsir etməyəcək; Azərbaycan fərqli marşrut seçməyi yubatmayacaq. Onun sözlərinə görə, Azərbaycan və Türkiyə arasında nəqliyyat sektorunda ən böyük layihə Zəngəzur dəhlizidir. "Bu istiqamətdə biz Azərbaycan tərəfi ilə operativ şəkildə prosesləri davam etdiririk. Dəhlizin haradan - Ermənistan və ya İran ərazisindən keçəcəyini isə azərbaycanlı qardaşlarımız həll edəcək. Sonra bu dəhliz Naxçıvandan Türkiyəyə keçəcək. Türkiyədə biz layihəmizi tamamladıq, tender keçirdik, yaxın günlərdə tikinti işlərinə başlayacağıq və Türkiyə ilə Azərbaycan arasında birbaşa nəqliyyat əlaqəsini təmin edəcəyik", - deyə nazir qeyd edib.

*P.SADAYOĞLU*

# COP29-da mühüm mövzular müzakirə olunub

**Bakıda keçirilən BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) zamanı, 11-23 noyabr tarixlərində mühüm məsələlər müzakirə olunub. COP29-un milli iqlim planlarının növbəti mərhələsi çərçivəsində Avropa İttifaqı (Aİ) və 25-ə yaxın ölkə isə kömürlə işləyən istilik elektrik stansiyaları (İES) tikməyəcəkləri ilə bağlı öhdəlik götürüb.**




## Aİ və 25 ölkənin öhdəliyi

Konfransının 28-ci sessiyası (COP28) çərçivəsində mədən yanacaqlarının istehlakının və istehsalının azaldılmasını nəzərdə tutan Saziş layihəsi hazırlanıb. Bu tədbirlər 2050-ci ilə qədər karbon neytrallığına nail olmaq məqsədi daşıyır. Aİ-nin iqlim dəyişiklikləri üzrə komissarı Vopke Hoekstra deyib: "Bir çox ölkələrin artıq kömür enerjisindən imtina etməsinə baxmayaraq, ona tələbat artmaqda davam edir. Yeni kömürlə işləyən elektrik stansiyalarının yaranması Yer kürəsində qlobal temperaturun 1,5 dərəcə Selsi səviyyəsində saxlanılması üçün ən böyük təhlükələrdən biridir".

Kömürdən mərhələli şəkildə imtinanın tərəfdarları 2025-ci ildə Braziliyada keçiriləcək COP30 danışıqları ərəfəsində kömür enerjisi ilə bağlı oxşar öhdəliklər götürmələri üçün digər ölkələrə təzyiq göstərəcəklər.

Qeyd edək ki, 2024-cü ilin iyulunda BMT-nin Baş katibi Antonio Quterreş xatırladıb ki, Paris Sazişinə əsasən, 2025-ci ilə qədər ölkələr istixana qazı emissiyalarını azaltmaq üçün yeni öhdəliklər təqdim etməlidirlər (Milli Müəyyən Edilmiş Töhfələr, NDCs). Bundan belə bir nəticə çıxır ki, ölkələr qlobal istiləşmənin 1,5 dərəcə Selsiyə qədər məhdudlaşdırılmasına əməl etməli, 2030 və 2035-ci illər üçün emissiyaların mütləq azaldılması hədəflərini yerinə yetirməli və 2040-cı ilə qədər kömürdən tədricən imtina etməyi öhdələrinə götürməlidir. Ehtimal olunur ki, ölkələrin öhdəlikləri enerji sistemlərinə yeni kömür elektrik stansiyalarının daxil edilməməsi vədini ehtiva edir.




"Bloomberg" agentliyi yazır ki, bu, həmin yanacaq növündən istifadənin azaldılmasına yönəlmiş son qlobal öhdəlikdir. "Bloomberg" Bakıda keçirilən BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) çərçivəsində müvafiq Sazişin bağlandığı barədə bəyanata istinad edir. Məlum olub ki, onu Kanada, Böyük Britaniya və Almaniya imzalayıb. Dünyanın ən çox kömür istehlak edən ölkələri olan Hindistan və ABŞ indiyədək bu sənədə məhəl qoymayıb. Bəyanat Azərbaycanda keçirilən iqlim sammitində Aİ, ABŞ və digər ölkələrin tədbirin digər iştirakçılarını qazıntı yanacaqlarından uzaqlaşmaya dair 2023-cü il Sazişini yenidən təsdiq etməyə çağırdığı bir vaxtda verilib.

Xatırladaq ki, BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər




## İqlim dəyişiklikləri ilə bağlı növbəti aksiya keçirilib

Onu da qeyd edək ki, noyabrın 23-də COP29 keçirilən məkanda daha bir etiraz aksiyası olub. Aksiya iştirakçıları "İqlim maliyyəsi üçün ödə!", "Ya ödə, ya sus!", "Qlobal şimal, ödə!", "Trilyonlarla ödə, milyardlarla yox!" kimi pankart açıb, şüarlar və bəyanatlar səsləndiriblər. Xatırladaq ki, noyabrın 11-dən bəri COP29 məkanında hər gün müxtəlif mövzularda aksiyalar keçirilib. Etirazçıların fikirlərini sərbəst ifadə etmələri üçün COP29 məkanında bütün şərait yaradılıb.

## Tədbir müddətində 600 mindən çox sərnişin daşınıb

Qeyd edək ki, ölkəmizin uğurla ev sahibliyi etdiyi BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) nəqliyyat təminatı çərçivəsində təşkil olunmuş COP29 xüsusi hərəkət zolaqları nəqliyyat əməliyyatlarının səmərəli təşkilinə, tədbir iştirakçılarının maneəsiz, təhlükəsiz və zamanında tədbir məkanlarına çatmasına şərait yaradıb. Ümumi olaraq tədbir müddətində 600 mindən çox sərnişinin daşınması həyata keçirilib.

Bu barədə Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi (AYNA) məlumat verib.

Bildirilib ki, öncədən də xəbər verildiyi kimi, ictimai nəqliyyatın xüsusi zolaqlar şəbəkəsinə daxil olmayan, məhz COP29 nəqliyyat əməliyyatlarının təşkili üçün çəkilmiş zolaqlar tədbir yekunlaşdıqdan sonra öz qüvvəsini itirəcək. Bu məqsədlə noyabrın 23-də Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi tərəfindən qeyd edilən zolaqlarda 5.9 avtobus zolağını bildirən yol nişanlarının sökülməsi və xətlərin silinməsi işlərinə başlanılıb. Bildirilib ki, yol nişanları çıxarılmış zolaqlar artıq qüvvədən düşmüş hesab olunacaq. 25 noyabr tarixinədək müvafiq nişanların çıxarılması işləri icra ediləcək.





# Şərəfli missiya

## 2006-cı ilin 24 noyabrında Mehriban xanım Əliyeva İCESCO-nun xoşməramlı səfiri adına layiq görülüb



Cənubi Qafqazın ən böyük ictimai təşkilatı olan Heydər Əliyev Fondu yarandığı vaxtdan bəri qurumun prezidenti Mehriban xanım Əliyevanın rəhbərliyi ilə ölkə daxilində genişmiqyaslı fəaliyyəti ilə yanaşı, beynəlxalq səviyyədə də müstəqil Azərbaycanı layiqincə təmsil edib, respublikamızın hər cəhətdən müsbət reallıqlarının, xalqımızın tolerantlıq ənənələrinin, o cümlədən də zəngin mədəniyyətimizin dünyada təbliğinə mühüm töhfələr verib. Belə səmərəli fəaliyyət isə həm Azərbaycan cəmiyyəti, həm də ayrı-ayrı beynəlxalq təşkilatlar tərəfindən yüksək dəyərləndirilir.

Tarixin bu günü - 24 noyabr 2006-cı il Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın İCESCO-nun xoşməramlı səfiri seçildiyi tarixdir.

**İCESCO-nun xoşməramlı səfiri adına layiq görülən ilk qadın ictimai xadim**

Dünyada böyük coğrafiyanı əhatə edən İslam ölkələrinin təhsil, elm və mədəniyyət təşkilatı olan İCESCO-nun təsis edilməsi haqqında təşəbbüs İslam Əməkdaşlıq Təşkilatına (o zaman İslam Konfransı Təşkilatı) üzv dövlətlərin xarici işlər nazirlərinin Dakarda (Seneqal) keçirilmiş 9-cu Konfransında (24-28 aprel, 1978-ci il) irəli sürülüb. İƏT-ə üzv dövlətlərin Məkkədə keçirilmiş 3-cü zirvə görüşündə (25-28 yanvar 1981-ci il) İslam dövlətlərinin təhsil, elm və mədəniyyət məsələləri üzrə təşkilatı olan İCESCO-nun təsis edilməsi və daimi qərargahının Rabat (Mərakeş) şəhərində yerləşdirilməsi qərara alınıb. Qurumun təsis Konfransı 3 may 1982-ci ildə Mərakeş Kralı II Həsənin himayəsi ilə Krallığın Fəs şəhərində baş tutub. Hazırda quruma 50-dən çox İslam dövləti daxildir.

Dünyada İslam həmrəyliyinin möhkəmlənməsinə davamlı töhfələr verən Azərbaycan 1991-ci ildən İCESCO-nun üzvüdür. 1991-ci ildə qurulmuş bu münasibətlər Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın 24 noyabr 2006-cı il tarixində İCESCO-nun xoşməramlı səfiri adına layiq görülməsi ilə keyfiyyətcə yeni bir inkişaf mərhələsinə yüksəlib. "Mehriban Əliyeva - təşkilatın bu yüksək adına layiq görülmüş ilk qadındır", - deyə İCESCO-nun sabiq Baş direktoru, doktor Əbdüləziz bin Osman əl Tuveycri Azərbaycanın birinci xanımına fəxri adın verilməsi haqqında diplomu ona təqdim edərkən bildirib. İCESCO-nun baş direktoru Mehriban Əliyevanın Heydər Əliyev Fondunun prezidenti kimi xidmətlərini, Fond tərəfindən həyata keçirilən təhsil və mədəniyyətin inkişafına, xüsusi diqqəti və qayğıya ehtiyacı olan insanların yaşayış səviyyəsinin yaxşılaşdırılmasına yönəldilmiş proqramları yüksək qiymətləndirib. O, Azərbaycan və İCESCO arasında əməkdaşlığın gələcəkdə də uğurla inkişaf edəcəyinə əmin olduğunu bildirib.

"İslam ölkələrinin elm, təhsil və mədəniyyət təşkilatı İCESCO-nun mükafatına layiq görülmək mənim üçün böyük şərəfdir", - deyə Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva mükafatlandırma mərasimində bildirib.

**Təhsilin inkişafına verilən davamlı töhfələr**

Mehriban xanım Əliyeva İslam dünyasını birləşdirən nüfuzlu qurumun xoşməramlı səfiri adına layiq görülərkən onun təhsilin, mədəniyyətin, sivilizasiyalar arasında dialoqun inkişafına verdiyi sanballı töhfələr nəzərə alınıb. Heydər Əliyev Fondunun qeyd olunan istiqamətlərdə fəaliyyəti həqiqətən çox geniş əhatə dairəsinə malikdir. Fond tərəfindən ölkəmizdə təhsilin inkişafı daim diqqət mərkəzində saxlanılır, bu istiqamətdə yeni-yeni layihələr reallaşdırılır. Təşəbbüslər isə bir qayda olaraq Fondun prezidenti Mehriban xanım Əliyevadan gəlir. Ötən illərdə bu istiqamətdə mühüm uğrlara imza atılıb. Hazırda ölkəmizdə Fondun dəstəyi ilə yeni məktəblərin inşası, habelə mövcud təhsil müəssisələrinin əsaslı təmiri prosesi uğurla davam etdirilir.

Heydər Əliyev Fondunun "Təhsilə dəstək" layihəsi də özünün humanist mahiyyəti ilə diqqəti çəkir. Layihə çərçivəsində vaxtilə Ermənistanın Azərbaycana təcavüzü nəticəsində daimi yaşayış yerlərini tərk etmiş qaçqın və məcburi köçkün ailələrindən olan birinci sinif şagirdlərinə hər il çanta və məktəb ləvazimatları hədiyyə edilir. Gürcüstanın azərbaycanlılar yaşayan bölgələrindəki təhsil ocaqlarına, həmçinin, Qax, Zaqatala və Balakən rayonlarında tədrisin gürcü dilində aparıldığı məktəblərə də mütəmadi olaraq yeni dərslik və tədris ləvazimatları göndərilir. Heydər Əliyev Fondunun "Təhsilə dəstək" layihəsi çərçivəsində Misir, Rumıniya, Rusiya Federasiyası, Pakistan və Hollandiyada bir sıra məktəblər yenidən qurulub. Bunlardan əlavə, təhsilin birinci pilləsi sayılan məktəbəqədər uşaq tərbiyə müəssisələrinin yenidən qurulması işləri də uğurla həyata keçirilir.

**Azərbaycan tolerantlıq məkanıdır**

Son illərdə Azərbaycan multikultural dəyərlərin təbliğ olunduğu müxtəlif beynəlxalq tədbirlərə uğurla ev sahibliyi edən bir məkana çevrilib. Ölkəmizdə davamlı olaraq mədəniyyətlərarası dialoq və humanitar forumlar keçirilir. Dünyanın iki yüzdən artıq ölkəsini əhatə edən Avropa və Asiya təşkilatlarının üzvü olan Azərbaycan sivilizasiyalararası əlaqələrin gücləndirilməsində nadir rol oynayır. Məhz Azərbaycanın təşəbbüsü əsasında Avropa Şurası ilə İslam Əməkdaşlıq Təşkilatı arasında mədəniyyət və digər sahələrdə dialoqun əsasını təşkil edən "Bakı prosesi"nə uğurla start verilib. Heydər Əliyev Fondu da bu sahədə dövlət siyasətinə güclü dəstək göstərir. Fondun təşkilatçılığı ilə dünyanın müxtəlif ölkələrində keçirilən silsilə tədbirlər tolerantlıqla bağlı Azərbaycanın ənənələrinin təbliğində müstəsna rol oynayır. Multikulturalizm ənənələrinin qorunması işinə xüsusi əhəmiyyət verən Fond "Tolerantlığın ünvanı - Azərbaycan" layihəsini həyata keçirir. Bu layihə çərçivəsində Bakıdakı Pravoslav kilsəsində təmir-bərpa işləri aparılıb, eyni zamanda, "Or-Avner" Beynəlxalq Fondu ilə birgə Bakıda yaşayan yəhudi uşaqları üçün 600 yerlik təhsil mərkəzi inşa edilib. Heydər Əliyev Fondunun bir sıra xarici ölkələrdə reallaşdırdığı layihələr də dünyada humanizm prinsiplərinin təbliği nöqteyi-nəzərindən çox əlamətdardır. Fondun Bolqarıstanda, Vatikanda və digər ünvanlarda tarixi mədəni irs nümunələrinin bərpası ilə bağlı reallaşdırdığı layihələr də çox doğru olaraq sivilizasiyalararası dialoqa verilən dəyərli töhfələr kimi dəyərləndirilir.

**Milli mədəniyyətimizin hamisi**

Mehriban xanım Əliyevanın çoxşaxəli fəaliyyətindən bəhs edərkən onun İslam dünyasının mədəni irsinin zənginləşməsində mühüm rol oynayan Azərbaycanda milli mədəniyyətin inkişafı üçün göstərdiyi xidmətləri xüsusi olaraq vurğulamaq lazımdır. Azərbaycanın birinci xanımı ölkəmizin müstəqilliyinin ilk dövrlərindən etibarən milli mədəniyyətimizin hamisi kimi çıxış edərək onun qorunması və inkişafı istiqamətində geniş fəaliyyət göstərir. Milli mədəniyyətimizin ən mühüm qollarından olan muğam sənəti məhz Mehriban xanım Əliyevanın xüsusi diqqəti sayəsində hazırda özünün yeni bir intibah dövrünü yaşayır. Heydər Əliyev Fondunun dəstəyi ilə hazırlanan albomlar, mütəmadi olaraq keçirilən festivallar, Bakıda və bölgələrdə yaradılan mərkəzlər respublikamızda muğama böyük maraq oyadıb. Hələ 1995-ci ildə Mehriban xanım Əliyevanın təşəbbüsü ilə hazırda onun rəhbərlik etdiyi Azərbaycan Mədəniyyətinin Dostları Fondu təsis olunub. Mehriban xanım Əliyeva 1996-cı ildə Azərbaycan mədəniyyətinin geniş təbliğ olunması məqsədilə Azərbaycan, ingilis və rus dillərində çap olunan "Azərbaycan - İrs" jurnalını təsis edib. Jurnal dünyanın onlarla ölkəsində bir neçə dildə yayımlanıb.

Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu mütəmadi olaraq xarici ölkələrdə Azərbaycan mədəniyyətinin təbliğinə yönələn tədbirlər həyata keçirir.

Eyni zamanda, Heydər Əliyev Fondu qədim tarixi abidələrin bərpasına və qorunmasına da xüsusi diqqət ayırır. Məsələn, Fondun dəstəyi ilə 2008-ci ildə Abşeronun ən qədim insan məskənlərindən olan Qala qəsəbəsində Dövlət Tarix-Etnoqrafiya Qoruğunun ərazisində Arxeoloji-Etnoqrafik Muzey Kompleksinin yaradılması tarixi keçmişimizi qoruyub saxlamağa, ölkəmizi turizm mərkəzlərindən birinə çevirməyə xidmət edir. İşğaldan azad edilmiş bir çox regionlarımızda isə bir çox məscidlər məhz Heydər Əliyev Fondunun dəstəyi ilə bərpa və rekonstruksiya edilib.

**İslam dünyasına gözəl nümunə**

Mehriban xanım Əliyeva qurumun xoşməralı səfiri seçildikdən sonra Azərbaycan - İCESCO əlaqələri davamlı olaraq inkişaf edir. Bu gün Azərbaycanın İCESCO ilə münasibətləri İslam dünyasına gözəl bir nümunədir. Bunun nəticəsidir ki, təşkilatın bir sıra mühüm tədbirləri məhz Bakıda keçirilib. İCESCO üzrə Azərbaycan Milli Komissiyasının fəaliyyəti özünün geniş spektiri ilə fərqlənir.

Hər bir azərbaycanlı üçün çox əziz şəhər olan Şuşa 2024-cü ildə zəngin İslam mədəniyyətinin qovuşduğu bir məkan kimi diqqət mərkəzində olub. Ötən il Qətərin paytaxtı Dohada keçirilən İslam Dünyası Mədəniyyət Nazirlərinin 12-ci Konfransında Şuşa şəhəri yekdil dəstəklə 2024-cü il üçün ICESCO-nun "İslam dünyasının mədəniyyət paytaxtı" seçilib. Bu ilin may ayında Şuşada tarixi Cıdır düzündə VII "Xarıbülbül" Beynəlxalq Musiqi Festivalının və "Şuşa - İslam dünyasının mədəniyyət paytaxtı 2024" ilinin açılış mərasimi keçirilib. Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın, ICESCO-nun Baş direktoru Salim bin Məhəmməd əl-Malik bu tədbirdə iştirak edib. Builki festivalın iştirakçıları arasında həm də ICESCO-ya üzv ölkələrdən ifaçılar və yaradıcı kollektivlər yer alıblar. Yeri gəmişkən, 2009-cu ildə Bakı, 2018-ci ildə isə Naxçıvan şəhərləri də İslam dünyasının mədəniyyət paytaxtı elan edilib.

Həmçinin İCESCO Azərbaycanın uğurlarının beynəlxalq miqyasda təbliğinə xüsusi önəm verir. Təşkilatın aylıq jurnalında Azərbaycanla əlaqələrə həmişə geniş yer ayrılır. Ermənistanın Azərbaycana qarşı yürütdüyü işğalçı siyasət ilə bağlı jurnalda mütəmadi olaraq yazılar dərc olunub, Azərbaycan həqiqətləri dünya ictimaiyyətinin diqqətinə çatdırılıb. Azərbaycan mədəniyyətinin İslam dünyasına inteqrasiyasında təşkilatın xidmətləri böyükdür.

**Əməkdaşlığın perspektivi...**

Gələcək əməkdaşlığın perspektivləri də kifayət qədər genişdir. 2024-cü il 11 may tarixində Şuşada Heydər Əliyev Fondu və ICESCO arasında əməkdaşlığa dair memorandum imzalanıb. Memorandum mədəniyyət, elm və təhsil, yeni texnologiyaların inkişafı sahələrində təcrübə mübadiləsinin aparılmasını, eyni zamanda, birgə layihələrin icra olunmasını nəzərdə tutur. ICESCO ilə Fond arasında ötən müddət ərzində mövcud əlaqələrin müzakirəsində Fondun prezidenti Mehriban Əliyevanın ICESCO-nun xoşməramlı səfiri kimi sivilizasiyaların yaxınlaşması, mədəniyyətlərarası dialoq üzrə fəaliyyət və xidmətləri vurğulanıb. İmzalanan memorandumun əməkdaşlığın gələcək uğuruna zəmin yaradacağı bildirilib.

***Mübariz ABDULLAYEV***

# COP29 Rumıniya mediasında




Rumıniyanın "Evenimentul Zilei" ("Günün hadisəsi") qəzeti və xəbər portalı Rumıniya nümayəndə heyətinin Bakıda keçirilən COP29 konfransında fəal iştirakı barədə yazıb. Məqalələrdə bildirilir ki, COP29 heyətinə Rumıniyanın Ailə, Gənclər və Şansların Bərabərliyi Nazirliyinin Ailə və demoqrafiya siyasəti üzrə departamentinin baş direktoru xanım Aleksandra Dobre rəhbərlik edib. Qeyd olunub ki, Aleksandra Dobre rəhbərlik etdiyi nümayəndə heyəti ilə konfrans çərçivəsində təşkil olunan "Youth Climate Forum"a qatılıb. UNICEF tərəfindən təşkil olunan forumda iki rumıniyalı gənc - Eva və Miron da iştirak ediblər. Aleksandra Dobre tədbir barədə fikrini bildirərkən deyib: "Bu gənclərin iştirakını böyük məmnuniyyətlə qarşıladım. Rumıniya gənclərin iqlim siyasətlərində və qərarvermə proseslərində fəal iştirakını davamlı olaraq dəstəkləyir". Konfransda, həmçinin Rumıniyanın "Gənclərin İqlim Dəyişikliyi Konfransı"nın təsisçilərindən olan Elena Miron və YOUNGO-nun (BMT-nin İqlim Dəyişikliyi üzrə Gənclər Konstitusiyası) siyasət komandasının üzvü Mara Ghilan da iştirak ediblər. Aleksandra Dobre bu gənc liderlərin iqlim dəyişikliyi ilə mübarizə sahəsindəki fəallığını vurğulayıb və onların yeni, innovativ siyasətlərin inkişafına böyük töhfələr verdiyini bildirib.

Aleksandra Dobre BMT-nin Avropa və Mərkəzi Asiya üzrə UNICEF-in Baş proqram mütəxəssisi Antonio Javanovski ilə görüşərək, gənclərin iqlim və davamlı inkişaf sahələrində daha aktiv iştirakını təmin etmək məqsədilə müxtəlif təşəbbüsləri müzakirə edib. Gənclər üçün təlim proqramlarının təşkil edilməsi, habelə yerli və milli gənclik şuralarının yaradılması kimi ideyalar da bu müzakirələrdə gündəmə gəlib.

Azərbaycan və Rumıniya arasında əməkdaşlıq məsələləri də görüşlərin əsas mövzularından olub. Rumıniyanın Azərbaycandakı səfiri Vasile Soare ilə keçirilən görüşdə enerji təhlükəsizliyinin artırılması məqsədilə iki ölkə arasında əməkdaşlığın genişləndirilməsi müzakirə edilib. Aleksandra Dobre, həmçinin Cənub Qaz Dəhlizinin Avropanın enerji mənbələrinin şaxələndirilməsi və enerji təhlükəsizliyinin gücləndirilməsinə böyük töhfə verdiyini vurğulayıb.

Qeyd olunub ki, Aleksandra Dobre panel çıxışlarında, gənc nəslin iqlim dəyişikliyinin uzunmüddətli təsirlərinə qarşı ən həssas qrup olduğunu bildirib və bu səbəbdən gənclərin həm milli, həm də beynəlxalq səviyyədə ətraf mühit siyasətlərində daha çox cəlb edilməsinin vacibliyini vurğulayıb.

# ICAPP-ın 12-ci Baş Assambleyası başa çatıb

Noyabrın 23-də Kamboca Xalq Partiyasının (KXP) ev sahibliyi ilə bu ölkənin Pnompen şəhərində Asiya Siyasi Partiyaları Beynəlxalq Konfransının (ICAPP) 12-ci Baş Assambleyasının 4-cü plenar iclası, Asiya Mədəniyyət Şurasının (ACC) 3-cü iclası və ICAPP Media Forumunun 7-ci iclası keçirilib.

"Sülh və barışıq axtarışı" mövzusunda keçirilən dördüncü plenar sessiyada Yeni Azərbaycan Partiyası (YAP) Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov da iştirak edib. İclasda dünyada artan münaqişələrin regional və qlobal təhlükəsizliyə çoxsaylı təhdidlər yaratdığı vurğulanaraq bütün siyasi partiyalar sülh naminə əməkdaşlığa dəvət olunub.

Asiya Mədəniyyət Şurasının "Sülh və barışığın təşviqi naminə mədəni müxtəliflik" mövzusunda keçirilən 3-cü iclasında Azərbaycanı YAP Mərkəzi Aparatının Beynəlxalq əlaqələr və humanitar məsələlər şöbəsinin məsləhətçisi Nizami Məmmədov təmsil edib. İclasda xalqların mədəni özünəməxsusluğunun qorunmasının, sülh və barışıq naminə mədəniyyətlərarası dialoqun təşviqinin əhəmiyyətindən bəhs olunub.

ICAPP Media Forumunun "Rəqəmsal era kontekstində saxta xəbərlərlə mübarizə" mövzusunda keçirilən 7-ci iclasında isə YAP Mərkəzi Aparatının İnformasiya texnologiyaları və ictimaiyyətlə əlaqələr şöbəsinin aparıcı məsləhətçisi, Yeni Azərbaycan Partiyasının media qurumu olan Yeni TV-nin aparıcısı Nurlana Mehdiyeva çıxış edib. O, qlobal çağırışlar fonunda informasiya və kommunikasiya texnologiyalarının inkişafının ayrı-ayrı xalqların həyatına və dövlətlərin siyasətinə təsirlərindən bəhs edib. Qeyd olunub ki, bir sıra dövlətlər və ya dövlətlərin dəstəyi ilə təşkilatlanmış qruplar beynəlxalq ictimai rəyi yanlış istiqamətə yönləndirmək üçün vaxtaşırı qarayaxma kampaniyaları aparırlar.



N.Mehdiyeva diqqəti həm Azərbaycan torpaqlarının 30 ilə yaxın işğal altında saxlanıldığı zaman, həm İkinci Qarabağ müharibəsi ərəfəsində, həm də postmüharibə dövründə ölkəmizə qarşı aparılan qarayaxma kampaniyalarına yönəldib. Regionda bir münaqişə ocağının söndüyü ərəfədə ayrı-ayrı dairələrin məhz media platformasından istifadə edərək birtərəfli, qərəzli və bugünkü reallıqla daban-dabana zidd olan feyk məlumatlar yaymağa çalışdığını deyən Nurlana Mehdiyeva bunun sabitlik və inkişafa hədəflənmiş Cənubi Qafqaz yolunda başlıca maneələrdən olduğunu diqqətə çatdırıb. Eyni zamanda, bu günlərdə Azərbaycanın ev sahibliyi ilə keçirilən BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası - COP29 zamanı da həmin dairələrin ölkəmizə qarşı informasiya hücumunun növbəti dalğasına start verdikləri qeyd olunub.

Sonda N.Mehdiyeva media nümayəndələrini səyləri birləşdirərək dezinformasiya və media manipulyasiyası kimi mənfi niyyət güdən fəaliyyətlərə qarşı mübarizədə vahid mövqe nümayiş etdirməyə çağırıb.

İclasın sonunda ICAPP Media Forumunun fəaliyyət qaydalarını və müzakirələrin əsas nəticələrini özündə əks etdirən Pnompen Bəyanatı qəbul olunub.

Daha sonra Kamboca Krallığının baş naziri, Kamboca Xalq Partiyasının vitse-prezidenti və ICAPP-ın 12-ci Baş Assambleyasının prezidenti Hun Manetin sədrliyi ilə Assambleyanın bağlanış mərasimi olub. Tədbirdə aparılmış müzakirələrin əsas məzmununu özündə əks etdirən Pnompen Bəyannaməsi qəbul edilib.

Həmin gün tədbir iştirakçılarının Kamboca Krallığının xüsusi hüquqi sənədlər mərkəzinə və "Vin-Vin" abidəsinə ziyarəti təşkil olunub.




















# Şəhər günün mübarək, doğma Kəlbəcər!



Böyük zəfərlərimizlə başa çatan 44 günlük Vətən müharibəsindən və 23 saatlıq lokal xarakterli antiterror tədbirlərindən sonra müstəqil Azərbaycanın həyatına yeni əlamətdar günlər daxil olub. Prezident İlham Əliyevin müvafiq sərəncamları ilə işğaldan azad olunmuş ərazilər üzrə şəhər günlərinin təsis edilməsi də bu sırada yer alır.

Noyabrın 25-i Kəlbəcər Şəhəri Günüdür. Azərbaycanın dilbər guşələrindən olan Kəlbəcər məhz 25 noyabr 2020-ci il tarixində işğaldan azad olunub - üçtərəfli bəyanatın şərtlərinə uyğun olaraq döyüşsüz Azərbaycana təhvil verilib.

**İşğaldan azad olunmuş ərazilər üzrə şəhər günləri**

Vətən müharibəsində işğaldan azad edilən ərazilərin hər qarışı bizim üçün son dərəcə əzizdir. Biz düz otuz il ərzində yurd yerlərimizə, doğma kəndlərimizə, şəhərlərimizə qayıtmağın həsrəti ilə yaşamışıq. 44 günlük müharibədə və 23 saatlıq lokal xarakterli antiterror tədbirlərində şanlı Ordumuzun şücaəti ilə əldə olunan böyük qələbələr sayəsində bu həsrətə son qoyulub və ölkəmizin ərazi bütövlüyü, suverenliyi təmin olunub.

Xalqımızın işğaldan azad olunan ərazilərə böyük bağlılığı var. Prezident İlham Əliyevin müvafiq sərəncamları ilə işğaldan azad edilmiş ərazilər üzrə şəhər günlərinin təsis edilməsi də bunun rəsmi olaraq təsdiqidir. İşğaldan azd edilmiş ərazilər üzrə şəhər günlərinin təsis edilməsi həm də böyük qələbələrimizin təbliği, gənclərdə vətənpərvərlik hisslərinin gücləndirilməsi anlamına gəlir. Bu qələbələri heç kəs bizə hədiyyə etməyib. Onları igid hərbiçilərimiz canları, qanları hesabına qazanıblar. Xaincəsinə torpaqlarımıza soxulan düşmən cəzalandırılmalı idi və Azərbaycan Ordusu bunu layiqincə etdi. Prezident İlham Əliyevin imzaladığı sərəncamlara əsasən işğaldan azad edilmiş ərazilərdəki şəhərlərin günləri təntənəli şəkildə qeyd olunur.

**60 min kəlbəcərli ev-eşiyindən qovulub**

Vətən müharibəsində əldə olunan şanlı Qələbəyədək biz hər il aprelin 2-ni tariximizin qara səhifələrindən biri kimi xatırlayırdıq. Bu da təsadüfi deyildi. 1993-cü il 2 aprel tarixində Azərbaycanın dilbər guşələrindən biri olan Kəlbəcər ermənilər tərəfindən işğala məruz qalmışdı.

Xatırladaq ki, ümumi sahəsi 3054 kv.km olan Kəlbəcər 1930-cu ilin 8 avqustunda inzibati rayon statusu alıb. Qərbdə Ermənistan Respublikası, şimalda Daşkəsən, Göygöl, Goranboy, şimal-şərqdə Tərtər, şərqdə Ağdam, Xocalı, cənubda Laçın rayonları ilə həmsərhəddir. Rayonun 144 kəndi, 1 şəhəri və 1 şəhər tipli qəsəbəsi var. Ağdərə rayonunun 20-yə qədər kəndi də Kəlbəcər inzibati bölgüsünə daxildir. Kəlbəcər şəhəri Bakıdan təxminən 450 km qərbdə, Bərdə - İstisu (Kəlbəcər) avtomobil yolunun kənarında, Tərtər çayı sahilində, sıldırım qayalıqlar üzərində yerləşir.

Kəlbəcərin işğalına qədər rayonda 19 ibtidai, 44 orta, 33 natamam orta məktəb, 1 qiyabi orta təhsil məktəbi, 1 peşə məktəbi, 1 texnikum (Tibb Texnikumu), 16 uşaq bağçası, günü uzadılmış 38 qrup, 41 mədəniyyət evi, 44 klub, 1 şəhər mərkəzi xəstəxanası, 1 uşaq xəstəxanası, 9 kənd xəstəxanası, 23 kənd həkim ambulatoriyası, 75 feldşer-mama məntəqəsi və sair fəaliyyət göstərirdi.

Mərkəzi hakimiyyətdən kömək almayan kəlbəcərlilər 1993-cü il mart ayının 23-dən aprel ayının 2-dək özlərindən qat-qat yaxşı təchiz olunmuş ermənilərə qarşı mərdliklə vuruşublar. 1993-cü ilin qiymətlərinə görə işğal nəticəsində Kəlbəcərin xalq təsərrüfatına 703 milyard 528 milyon rubl ziyan vurulub. İşğal nəticəsində Kəlbəcərdən 53340 nəfər adam qovulub, 511 dinc əhali öldürülüb, 321 nəfər isə əsir götürülüb və itkin düşüb.

Kəlbəcərin işğalından əvvəl isə Ağdaban faciəsi baş verib. Kəlbəcər rayonunun 130 evdən ibarət Ağdaban kəndi tamamilə erməni separatçıları tərəfindən yandırılıb, kəndin 779 nəfər dinc sakininə qeyri-insani işgəncələr verilib. 67 nəfər qətlə yetirilib, 8 nəfər 90-100 yaşlı qoca, 2 nəfər azyaşlı uşaq, 7 nəfər qadın diri-diri odda yandırılıb, 2 nəfər itkin düşüb, 12 nəfərə ağır bədən xəsarəti yetirilib. Ağdaban faciəsi tarixdə bəşəriyyətə qarşı törədilmiş ən böyük cinayətlərdən biri sayılır. İşğal nəticəsində Kəlbəcərin 60 min nəfər əhalisi respublikanın 56 rayonunun 770 yaşayış məntəqəsində müvəqqəti məskunlaşmaq məcburiyyətində qalıb.

**Kəlbəcərin bir güllə atılmadan azad edilməsi**

Kəlbəcərin işğalından sonra BMT Təhlükəsizlik Şurası 822 saylı Qətnamə qəbul edib. Qətnamədə bütün işğalçı qüvvələrin Kəlbəcərdən qeyd-şərtsiz çıxarılması tələb olunurdu. Ancaq BMT TŞ-nin bu və digər üç qətnaməsi təxminən üç onillik ərzində yerinə yetirilmədi. Azərbaycan ərazi bütövlüyünə özünün Müzəffər Ordusunun şanlı Qələbəsi sayəsində nail oldu. 2020-ci il sentyabrın 27-dən noyabrın 10-dək davam edən Vətən müharibəsində Silahlı Qüvvələrimiz XXI əsrin müharibəsini apardı və düşməni acınacaqlı məğlubiyyətə uğratdı. Düşmən ordusu cəmi 44 gün ərzində bütün döyüş qabiliyyətini itirdi. Ordumuz 300-dən çox yaşayış məntəqəsini bilavasitə döyüş meydanında işğaldan azad etdi. Acınacaqlı məğlubiyyət acısı yaşayan Ermənistan noyabrın 10-da onun üçün kapitulyasiya aktı sayılan üçtərəfli Bəyanatı imzalamaq məcburiyyətində qaldı. Həmin sənədə əsasən məğlub Ermənistan Ağdam, Kəlbəcər və Laçın rayonlarından döyüşsüz çıxmaq öhdəliyi götürdü. Razılaşmaya əsasən, Kəlbəcər noyabrın 25-də tamamilə boşaldılaraq Azərbaycana təhvil verildi. Həmin tarixdə Azərbaycanın Silahlı Qüvvələri rayon ərazisinə daxil olaraq burada nəzarəti ələ aldı.

Üçtərəfli bəyanata əsasən Kəlbəcərin işğaldan azad edilməsi mühüm tarixi-strateji önəm daşıyır. 27 il işğal altında qalan Kəlbəcər bir güllə belə atılmadan, şəhidlər verilmədən azad edildi. Bu, əslində Azərbaycanın hərbi, siyasi və mənəvi qələbəsi, Ermənistanın öz gücsüzlüyünün etirafı anlamına gəlir. Kəlbəcərin və digər ərazilərin işğaldan azad edilməsi ilə Azərbaycan tarixi sərhədlərinə çıxmağa nail oldu. Hazırda işğaldan azad edilmiş digər ərazilərdə olduğu kimi, Kəlbəcərdə də genişmiqyaslı quruculuq layihələri həyata keçirilir, yaşayış məntəqələri bərpa olunur.

***Mübariz FEYZİLİ***

# Paralel aparmaq cəhdi qəbuledilməzdir

## Milli Məclisin Qərbi Azərbaycana Qayıdış üzrə Təşəbbüs Qrupu bəyanat yayıb



Azərbaycan Respublikası Milli Məclisinin Qərbi Azərbaycana Qayıdış üzrə Təşəbbüs Qrupu bəyanat yayıb.

Bəyanatda deyilir ki, Ermənistanın baş naziri Nikol Paşinyanın Qərbi Azərbaycan məsələsini və uydurma "Qərbi Ermənistan" anlayışı arasında paralel aparmaq cəhdi qəbuledilməzdir. Qərbi Azərbaycan məsələsi etnik təmizləməyə məruz qalmış azərbaycanlıların Ermənistana dinc, təhlükəsiz və ləyaqətli şəkildə qayıdışına xidmət edən insan hüquqları mövzusudur. "Qərbi Ermənistan" ifadəsi isə Ermənistanın Konstitusiyası və digər əsas sənədlərində və siyasi addımlarında öz əksini tapmış ərazi iddiasıdır.

Vurğulanır ki, baş nazirin ən azı sözdə uydurma "Qərbi Ermənistan" anlayışını sual altına alması, "mifik Ermənistandan real Ermənistana keçmək" barədə bəyanatları, əslində, çoxdan atılmalı olan addımlardır. Lakin bu, etnik təmizləməyə məruz qalmış Qərbi azərbaycanlıların sülh yolu ilə öz evlərinə qayıtmaq hüququ hesabına başa gəlməməlidir. "Bizim insan hüquqlarına əsaslanan haqq işimizi ərazi iddiası ilə müqayisə etmək yolverilməzdir. Bir daha xatırladaq ki, Qərbi Azərbaycan İcması dəfələrlə Ermənistan hökumətinə müraciət edərək, Qərbi azərbaycanlıların qayıdışı ilə bağlı beynəlxalq hüququn norma və prinsiplərinə, o cümlədən dövlətlərin ərazi bütövlüyü və suverenliyinə tam riayət olunmaqla dialoq başlatmağı təklif edib. Lakin Ermənistan bu çağırışlara məhəl qoymayıb və qəsdən İcmanın fəaliyyətini özünün ərazi bütövlüyünə təhdid kimi təhrif edib", -deyə bəyanatda bildirilir. O da qeyd edilir ki, baş nazir Paşinyan belə yanlış müqayisələr aparmaq əvəzinə, İcmanın dialoq çağırışlarına cavab verməli, Qərbi azərbaycanlıların təhlükəsiz, ləyaqətli qayıdışını təmin etməli, Ermənistanın Konstitusiyasından və digər sənədlərdən Azərbaycana və digər qonşu dövlətlərə qarşı ərazi iddialarını dərhal, qeyd-şərtsiz çıxarmaq üzərində işləməli, eyni zamanda, təhlükəli militarizasiya siyasətinə son qoymalıdır".

# Beşinci sosial islahat paketi

## 2025-ci ildə 3 milyon insanı əhatə edən geniş sosial müdafiə tədbirləri həyata keçiriləcək

2025-ci ilin dövlət və icmal büdcələrində nəzərdə tutulan artımlar sosial çağırışlara cavab verməklə, növbəti sosial paketin icrası üçün güclü maliyyə təminatı yaradır. Dövlət büdcəsində növbəti il üçün sosialyönümlü xərclərin həcmi 16,9 milyard manat məbləğində müəyyən edilib ki, bu, əvvəlki illə nisbətdə 1 milyard manatdan çoxdur. Büdcədə təkcə, sosial müdafiə, sosial təminat xərcləri 4,8 milyard manat nəzərdə tutulub. Həmçinin, büdcə zərfinin bir hissəsi olan Dövlət Sosial Müdafiə Fondunun (DSMF) büdcəsinin gəlir və xərcləri 7,7 milyard manat məbləğində proqnozlaşdırılıb. Beləliklə, birbaşa büdcə vəsaiti və büdcədənkənar fondun (DSMF) birgə maliyyələşdirməsi sayəsində 2025-ci ildə sosial müdafiə və təminat üzrə 12,5 milyard manat həcmində böyük mənbə formalaşacaq. Bu isə növbəti ildə yeni və böyük bir sosial kateqoriyanı əhatə edən sosial paketin icrasına imkan verəcək.

### Prezidentin tapşırığına əsasən...

Qeyd edək ki, Prezident İlham Əliyev yeddinci çağırış Milli Məclisin ilk iclasında çıxışı zamanı ölkəmizin iqtisadi imkanlarının artması nəticəsində vətəndaşların sosialyönümlü rifahının yaxşılaşdırılması yönündə davamlı addımlar atıldığına diqqət çəkərək bu sosial siyasətin növbəti illərdə də davam etdiriləcəyini bildirib. Dövlət başçısı bu siyasət tədbirləri çərçivəsində 2025-ci ildə minimum əməkhaqqı və pensiyaların artırılacağının anonsunu verib.

Minimum əməkhaqqı, minimum pensiya və digər pensiyaların, eləcə də müavinətlərin artırılması ilə bağlı məsələlər Nazirlər Kabinetində 2025-ci il üzrə dövlət büdcəsi layihəsinin müzakirəsi zamanı da əsas diqqətçəkən məqamlardan biri olub. Baş nazir Əli Əsədov vurğulayıb ki, 2024-cü ilin ötən dövrü ərzində əlverişli xarici mühit və ölkəmizdə iqtisadi aktivliyin davam etməsi, o cümlədən qeyri-neft-qaz sektorunun bütün sahələrində müsbət artım templərinin müşahidə edilməsi sayəsində iqtisadiyyatda əhəmiyyətli inkişaf dinamikası qeydə alınıb. Ümumi daxili məhsulun artımı qənaətbəxşdir, eyni zamanda ölkənin 73 milyard dollar həcmində strateji valyuta ehtiyatları formalaşıb. Həmçinin iqtisadi aktivlikdən qaynaqlanaraq müsbət makro-fiskal çərçivə yaranıb, dövlət büdcəsinin daxilolmaları artır, bu amillər 2024-cü ilin dövlət büdcəsinin maliyyə dayanıqlılığını tam təmin edəcək, eləcə də növbəti ilin büdcə yığımları üçün dərin zəmin yaradacaq.

Əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev Milli Məclisdə 2025-ci ilin büdcə layihəsinin müzakirəsində bildirib ki, növbəti ildə böyük sosial islahat paketinin həyata keçirilməsi üçün müvafiq hzırlıq işləri aparılır. Minimum əməkhaqqı və minimum pensiya, eyni zamanda, sosial ödənişlərdə artımların edilməsi, ümumilikdə, pensiyaların indeksləşdirilməsi həyata keçiriləcək. Bu məqsədlə gələn il əhatəli sosial strategiyanın icrasına 2,6 milyard manat vəsait ayrılması nəzərdə tutulur. Həmin vəsait hesabına 3 milyona qədər insanı əhatə edən sosial islahat paketi icra olunacaq.

Maliyyə naziri Samir Şərifov da artımlarla bağlı mesajının çatdıraraq bildirib ki, dövlət başçısının müvafiq tapşırığına əsasən, maaşların və sosial müavinətlərin artırılması istiqamətində zəruri tədbirlər görülür.



### Minimum əməkhaqqı 400 manata çatdırılır

Büdcə layihəsində minimum əməkhaqqı məbləğinin 400 manat olacağı öz əksini tapıb. Bu isə ölkə üzrə 700-800 min vətəndaşın əmək haqqının artımı da təmin olunacaq. Belə ki, dövlət büdcəsindən maliyyələşən bəzi sahələrdə əməyin ödənilməsi Vahid Tarif Cədvəli (VTC) əsasında aparılır. Bu sistemə görə, müxtəlif dərəcələrə sahib işçilərin əmək haqları minimum əmək haqlarının mislilləri hesabına formalaşır. Bu baxımdan, minimum əməkhaqqının artırılması həmin işçilərin maaşlarına təsir edəcək. Dövlət büdcəsindən maliyyələşdirilən sahələrdə çalışan işçilərin maaşlarının minimum məbləğləri VTC-dən irəli gələn tələblərə uyğunlaşdırılır. Bu o deməkdir ki, 2025-ci ildə minimium əməkhaqqının artmasından sonra ölkəmizdə 400 min dövlət, qeyri-dövlət sektorunda çalışan 400 min insanın da əməkhaqqı artmış olacaq.

### Orta aylıq pensiyanın 535 manat olacağı proqnozlaşdırılır

Beləliklə, gələn sosial paket çərçivəsində ilk növbədə, 1 milyondan çox insanın sosial rifahının yaxşılaşdırılmasında mühüm rol oynayacaq pensiyaların artımı gerçəkləşəcək. Əmək pensiyalarının məbləği 2 aydan sonra ölkədəki orta aylıq əməkhaqqının yekun artımına əsasən müəyyənləşəcək. 2024-cü il oktyabrın 1-i vəziyyətinə görə, ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin orta aylıq nominal əməkhaqqı əvvəlki ilin müvafiq dövrünə nisbətən 8 faiz artaraq 993 manat təşkil edib. İlin sonunda bu rəqəmin 10-11 faiz civarında artacağı gözlənilir. Bu ssenari üzrə ölkədə pensiayaların artımı da eyni həcmdə olacaq. İkirəqəmli pensiya artımının orta aylıq faiz məbləği təxminən 50-60 manat təşkil edəcək. Belə ki, hazırda ölkəmizdə əmək pensiyalarının orta aylıq məbləği 485 manat təşkil edir. Növbəti ildə artımdan sonra bu rəqəmin 535-536 manat olacağı proqnozlaşdırılır. Yaşa görə pensiyanın orta aylıq məbləğinin isə 571 manata yüksəlməsi fərz edilir.

Bununla yanaşı, dövlət başçısının müvafiq tapşırığına əsasən, pensiyaların baza hissəsinin də artımı gözlənilir ki, belə olduqda pensiyalar daha çox artmış olacaq. Xüsusilə də minimum pensiya, əlilliyə görə pensiya və digər təyinatlı pensiyaların və müavinətlərin də artımı nəzərdə tutulur. Bu artımların məbləği də yaxın günlərdə büdcə zərfi ilə bağlı bütün təfərrüatlar öz həllini tapdıqdan sonra müəyyənləşəcək.




### Ötən 5 ildə 4 milyondan çox vətəndaşı əhatə edən 4 sosial paket

Azərbaycan dövləti tərəfindən ardıcıl sosialyönümlü siyasət həyata keçirilir. Yürüdülən dövlət siyasətinin ən mühüm prioritetlərindən biri sosial müdafiə və sosial təminat sahəsində ölkədə aparılan islahatların genişləndirilməsi, vətəndaşlarımızın sosial rifah halının daha da yaxşılaşdırılmasıdır. Dövlət başçısının tapşırığı əsasında həyata keçirilən köklü sosial islahatlar nəticəsində 2018-2023-cü illərdə ölkəmizdə sosial ödənişlərdə ciddi artım dinamikasına nail olunub. 4 milyondan çox vətəndaşı əhatə edən həmin sosial islahat paketlərinə dövlət 7 milyard manata yaxın vəsait yönəldib. Bu tədbirlər sayəsində qeyd edilən dövrdə minimum aylıq əməkhaqqı 2,7 dəfə artırılaraq 130 manatdan 345 manata, minimum aylıq pensiya 2,5 dəfə artırılaraq 110 manatdan 280 manata çatdırılıb. Orta aylıq əməkhaqqında 65,3 faiz, median əməkhaqqında 2,1 dəfə, əməkhaqqı fondunda 2,5 dəfə, orta aylıq pensiyada 2 dəfə, sosial müavinət və təqaüdlər üzrə ayrılan illik vəsaitdə 5 dəfəyədək, ünvanlı sosial yardımın orta aylıq məbləğində 2,9 dəfə artım baş verib.

Beləliklə, 2025-ci ildə dövlətin maliyyə imkanlarının artması sayəsində büdcədə əsas prioritetlər sırasında yer alan əhalinin sosial müdafiəsinin gücləndirilməsi və rifah halının yaxşılaşdırılması üçün əlavə sosial dəstək paketi formalaşmış olacaq. Növbəti sosial islahat paketinin həyata keçirilməsi ölkədə əhalinin rifah halının və sosial təminatının və həyat şəraitinin daha da yüksəldilməsi istiqamətində əvvəlki illərdə aparılan sosial qayğı strategiyasının mühüm tərkib hissəsi hesab edilə bilər.

*E.CƏFƏRLİ*

# Azərbaycan ən yüksək reytinq balına layiq görülüb

Beynəlxalq vergitutma sahəsində xüsusi əhəmiyyət kəsb edən məsələlərdən biri vergi orqanları arasında məlumat mübadiləsinin genişləndirilməsi və bu sahədə formalaşmış beynəlxalq standartların tətbiqidir. Azərbaycan 2013-cü ildən "Vergi məqsədləri üçün şəffaflıq və məlumat mübadiləsi üzrə Qlobal Forum"a üzv olmaqla şəffaflıq və məlumat mübadiləsi üzrə beynəlxalq standartların tətbiqi və qiymətləndirmə prosesində iştirak öhdəliyini öz üzərinə götürüb. Qlobal Forum tərəfindən indiyədək 2010-2016-cı və 2016-2024-cü illəri əhatə edən 2 qiymətləndirmə həyata keçirilib. Birinci mərhələ çərçivəsində aparılmış qiymətləndirmə ölkəmizin vergi qanunvericiliyində beynəlxalq təcrübənin tam nəzərə alınmasını ehtiva edib. Qiymətləndirmə Qrupu bununla bağlı açıqladığı nəticələrə əsasən, Azərbaycanı ən yüksək reytinq balına layiq görüb. Ölkəmizin reytinqi və müvafiq hesabat noyabrın 21-də İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD) rəsmi internet səhifəsində dərc edilib.

## Ölkəmizdə şəffaf, beynəlxalq standartlara uyğun müasir vergi sistemi mövcuddur

### 18 ölkə arasında...

İkinci mərhələ üzrə aparılmış qiymətləndirmələrin nəticələri də qənaətbəxş olub. Qiymətləndirmə prosesi çərçivəsində bir sıra qanunvericilik aktlarının və beynəlxalq müqavilələrin müddəaları, ölkədə hüquqi şəxslərin qeydiyyatı və ləğv olunması prosesləri, vergi orqanlarında qeydiyyat məlumatlarının mövcudluğu və aktuallığı, hüquqi şəxslər tərəfindən vergi bəyannamələrinin verilməsi təcrübəsi təhlil edilib. Bundan başqa, ölkədə mühasibat uçotu və bank sənədlərinin mövcudluğu, saxlanılması qaydaları, həmin məlumatların vergi orqanlarına əlçatanlığı, ölkədə vergi orqanlarının hüquqları və mövcud məlumat mənbələri, vergi ödəyiciləri tərəfindən vergi qanunvericiliyinə əməletmə səviyyəsi, Azərbaycanın beynəlxalq tərəfdaşlarının sayı, mübadilə olunan məlumatların keyfiyyəti və tamlığı, həmin məlumatın təhlükəsizliyinin qorunması şərtləri də araşdırılıb. 123 ölkəni əhatə edən bu tədqiqatların nəticələrinə əsasən, 18 ölkə standartlara uyğun qiymət şkalası üzrə bal əldə edib ki, onlardan biri də Azərbaycandır.

Qlobal Forum çərçivəsində Azərbaycanın ən yüksək reytinqə layiq görülməsi ölkəmizdə şəffaf, beynəlxalq standartlara uyğun və bütün tərəfdaş ölkələrlə səmərəli məlumat mübadiləsinin aparılması imkanını təmin edən müasir vergi sisteminin mövcud olmasından xəbər verir. Bu göstərici ölkəmizə bir sıra üstünlüklər qazandırır, əlverişli investisiya mühitinin və şəffaflığın təminatı fonunda ölkənin beynəlxalq nüfuzunun yüksəlməsi, xarici investisiya axınının stimullaşdırılması, eləcə də iri maliyyə mərkəzlərinin təmsil olunduğu unikal bir forumda Azərbaycanın etibarlı tərəfdaş kimi qəbul edilməsi baxımından xüsusi əhəmiyyət daşıyır.

### İnvestisiya mühitinin yaxşılaşdırılması



Ölkəmizin vergi sistemində aparılan islahatlar biznes və investisiya mühitinin təkmilləşdirilməsinə xidmət edir və son illərdə öz mühüm nəticələrini göstərməkdədir. Aparılan davamlı iqtisadi islahatlar və iqtisadiyyatın diversifikasiyası siyasəti nəticəsində qeyri-neft sektorunun inkişafı təmin edilib, bu sahədə əhəmiyyətli irəliləyişlərə nail olunub. Müəyyən edilmiş hədəfə nail olmaq üçün dövlət tərəfindən dövlət-sahibkar münasibətlərinin inkişaf etdirilməsi, biznes və investisiya mühitinin yaxşılaşdırılması, dövlət tənzimləməsinin, o cümlədən inzibati qayda və prosedurların təkmilləşdirilməsi, sahibkarlıq fəaliyyətinə qanunsuz müdaxilələrin və süni maneələrin aradan qaldırılması, sahibkarlara dəstək və təşviq mexanizmlərinin formalaşdırılması, rəqabətqabiliyyətliliyin və ixrac imkanlarının genişləndirilməsi, beynəlxalq standartlara uyğun elektron xidmətlərin göstərilməsi və digər sahələri əhatə edən kompleks tədbirlər həyata keçirilir.

### Biznesə dəstək verən vergi mühiti

Vergi orqanları tərəfindən həyata keçirilən tədbirlər ölkədə sahibkarlığın inkişafı, rəqabət qabiliyyətinin artırılması, qabaqcıl beynəlxalq təcrübəyə uyğun daha da cəlbedici biznes və investisiya mühitinin formalaşdırılması sahəsində aparılan islahatlara əhəmiyyətli töhfə verir. Azərbaycan biznesə başlama üzrə dünyada ən yaxşı təcrübələrdən birinə malikdir. Belə ki, ölkəmizdə hüquqi şəxslərin cəmi bir prosedurla onlayn dövlət qeydiyyatına alınması üçün əlverişli şərait yaradılıb. 2019-cu ilin əvvəlindən başlayaraq dövlət qeydiyyatının aparılmasının bir prosedurla tamamlanması təqdim olunur. Qeydiyyatın həyata keçirilməsi üçün e-ərizənin elektron imza ilə təsdiq edilməsi zərurəti aradan qaldırılıb, eləcə də qeydiyyatla bağlı əvvəllər mövcud olan bütün prosedurlar ləğv olunub. Nəticədə hüquqi şəxsin qeydiyyatı prosedurlarının sayı 3-dən 1-ə, müddəti isə 20 dəqiqəyədək azaldılıb, biznesə başlamaq üçün maliyyə vəsaiti və sənəd sayı sıfıra endirilib. Yeni qeydiyyat sisteminə əsasən, qeydiyyat sənədləri vergiödəyicisinin elektron kabinetinə onlayn qaydada göndərilir və bu sənədlərin kağız daşıyıcılarda götürülməsinə zərurət qalmır.



### Uğurlarımız beynəlxalq müstəvidə

Azərbaycanın apardığı vergi islahatları davamlı olaraq beynəlxalq təşkilatlar və forumlar tərəfindən təqdir edilir. 2021-ci ildə ölkəmizin vergi administrasiyası dünya üzrə kommersiya qeydiyyatçılarının 60-a yaxın qurumunu özündə birləşdirən Korporativ Qeydiyyatçılar Forumunun (CRF) İnnovasiya Mükafatına layiq görülüb. Dövlət Vergi Xidməti 2012-ci ildə CRF-in tamhüquqlu üzvüdür. CRF tərəfindən 2020-ci ilin may ayında iki nominasiya üzrə müsabiqə elan edildi. 2021-ci il dekabrın 31-dək davam edən müsabiqədə Dövlət Vergi Xidməti "Bir prosedurla dövlət qeydiyyatı" (State registration with single procedure) layihəsi ilə çıxış edib və müsabiqənin nəticələrinə əsasən, "Təqdir" kateqoriyasında qalib gəlib. Ümumiyyətlə, Dövlət Vergi Xidməti tərəfindən qeydiyyat sisteminin təkmilləşdirilməsi istiqamətində təcrübəni artırmaq üçün beynəlxalq əməkdaşlıq diqqətdə saxlanılır. Qurum biznes reyestri siyasətinə, əməliyyatlarına və texnologiya təşəbbüslərinə dair məlumat verən biznes reyestri mütəxəssislərinin birliyi olan Avropa Biznes Qeydiyyatçıları Assosiasiyası ilə də sıx əməkdaşlıq edir. Təşkilatın əsas məqsədi əməkdaşlıq edən biznes qeydiyyatçılarının beynəlxalq icmasının yaradılmasıdır.

### "Business Ready" hesabatında layiqli yer naminə

Azərbaycanın vergi administrasiyasının əldə etdiyi nailiyyətlərin mühüm əsaslarını son illərdə ölkədə həyata keçirilən əhatəli vergi siyasəti tədbirləri, o cümlədən vergi inibatçılığının təkmilləşdirilməsi və optimallaşdırılması, sahibkar-məmur münasibətlərinin ən müasir çevik rəqəmsal platforma üzərində tənzimlənməsi, vergi yükünün aşağı salınması və digər islahatlar təşkil edir.

Vergi orqanları tərəfindən biznes mühitinin təkmilləşdirilməsi istiqamətində yeni mütərəqqi təcrübələrin tətbiqi imkanları hazırda ön planda dayanan məsələlərdəndir. Bu məqsədlə biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiyanın "Biznesə daxilolma" işçi qrupu Dünya Bankı Qrupunun "Əlverişli biznes mühiti" layihəsinin "Biznesə daxilolma" indikatoru üzrə əhatəli diaqnostikanın və müvafiq sahədə təkmilləşmələrin həyata keçirilməsinə dair Yol Xəritəsi hazırlanıb. Bu çərçivəyə əsasən, "Doing Business" hesabatının əvəzində yeni beynəlxalq iqtisadi qiymətləndirmə indeksini müəyyən edən "Business Ready" (B-Ready) tədqiqatının hazırlanması istiqamətində təhlillər davam etdirilir. Biznes və investisiya mühitinə təsir edən müxtəlif sahələrdə institusional islahatlar, ələxsus da vergi yükü və vergi dərəcələri, biznesin fəaliyyətində vergiqoymanın təsirləri, kommunal xidmətlər, əmək münasibətləri, maliyyə xidmətləri, beynəlxalq ticarət, bazar rəqabəti, mübahisələrin həlli kimi əsas alt-indekslər üzrə təkmilləşdirmələr həyata keçirilməkdədir.

Vergi orqanı yeni reallıqları nəzərə alaraq Dünya Bankı ilə müasir çağırışlar fonunda "Əlverişli biznes mühiti" adlı yeni layihə çərçivəsində islahatları və iqtisadi təşəbbüslərə yer verməyi planlaşdırır. Belə ki, "Əlverişli Biznes Mühiti" layihəsinin "Biznesə daxilolma" indikatoru ilə bağlı müvafiq sahədə təkmilləşmələr həyata keçirilib. Yol Xəritəsinə uyğun olaraq biznesin təsis edilməsi praktikasının qabaqcıl beynəlxalq təcrübə nəzərə alınmaqla təkmilləşdirilməsi prosesi çərçivəsində 30-dan çox tədbir həyata keçirilib. Biznesin qeydiyyatının sadələşdirilməsi çərçivəsində "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" qanuna edilmiş dəyişikliyə əsasən, yerli və xarici investisiyalı məhdud məsuliyyətli cəmiyyətlərin (MMC) elektron dövlət qeydiyyatı prosedurları eyniləşdirilib, xarici mənşəli sənədlərin elektron portal üzərindən notariusa göndərməklə məsafədən tərcüməsinin notariat qaydasında təsdiqlənməsi xidmətindən yararlanaraq müvafiq vergi orqanlarına elektron formada təqdim etmək imkanı yaradılıb. Əmək, Mülki və İnzibati Xətalar məcəllələrinə dəyişiklik edilməsi barədə qanun layihələri hazırlanaraq iyun ayında Milli Məclis tərəfindən təsdiqlənib. Həmçinin, 2024-cü ildən kommersiya hüquqi şəxsin onlayn qeydiyyatı zamanı "SİMA" elektron imzanın tətbiqinə başlanılıb.

### Başlıca məqsəd...

"Business Ready" hesabatının "Biznesə daxilolma" indikatoru ilə bağlı müvafiq sahədə təkmilləşmələrin və kommunikasiyanın həyata keçirilməsinə dair 2024-cü il üzrə Yol Xəritəsində 2 altindikator üzrə 4 komponent çərçivəsində 16 müxtəlif tədbirin icrası ilə bağlı işlər yekunlaşmaqdadır. "Vergitutma" indikatoru üzrə 2024-cü il üzrə Yol Xəritəsi üzrə isə 6 altindikator üzrə 9 komponent çərçivəsində 42 müxtəlif tədbirin icrasını nəzərdə tutulur ki, vergi qaydalarının aydınlığı və şəffaflığını, ətraf mühit vergilərini, vergi inzibatçılığının rəqəmsallaşdırılmasını, vergi auditi, mübahisələrin həlli mexanizmi və vergi orqanında idarəetmə tədbirlərini əhatə edir.

Bu istiqamətdə aparılan islahatların başlıca məqsədi Azərbaycanın Dünya Bankının yeni təkmilləşdirilmiş və müasir meyarlar üzrə qiymətləndiriləcək hesabatında öz layiqli yerini təmin etməkdən ibarətdir. Azərbaycan Dünya Bankının yeni və daha şəffaf hesabatında islahatçı ölkələr qrupunda qalmaq iddiasındadır.

### Yeni islahatların anonsu

Qarşıdakı illərdə beynəlxalq təşkilatlar, o cümlədən OECD ilə vergi inzibatçılığının daha da optimallaşdırılması tövsiyəsinə əsasən, institusional və təşviqedici addımlar atılacaq. Vergi Məcəlləsinə təklif edilən yeni dəyişikliklərə əsasən, sahibkarlıq və invesitisiya fəaliyyətinin təşviqi, sahibkarlıq subyektlərinin vergi yükünün azaldılması, vergi nəzarəti mexanizminin və vergi inzibatçılığının təkmilləşdirilməsi, beynəlxalq reytinqlərdə ölkəmizin mövqeyinin yaxşılaşdırılması kimi ümdə hədəflər yer alıb.

Ümumiyyətlə, sahibkarlıq və invesitisiya fəaliyyətinin təşviqi, sahibkarlıq subyektlərinin vergi yükünün azaldılması, vergi nəzarəti mexanizminin və vergi inzibatçılığının təkmilləşdirilməsi, beynəlxalq reytinqlərdə Azərbaycanın mövqeyinin yaxşılaşdırılması kimi istiqamətləri əhatə edən dəyişikliklər həm yerli, həm də beynəlxalq təcrübə əsasında hazırlanıb. Bu isə qurumların və xarici ölkələrin təcrübələrinin vergi islahatları siyasətində önəmli yer tutmasına dəlalət edir.

*E.CƏFƏRLİ*

# Vətəndaş cəmiyyəti qlobal iqlim problemlərinə qarşı birləşir

## COP29 QHT-lərin aktiv müzakirə platforması kimi yadda qaldı

Bskıda keçirilən BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyası Tərəflərinin 29-cu sessiyası iqlim problemlərinin qlobal miqyasda müzakirəsi üçün yeni və mühüm platforma kimi yadda qaldı. Xüsusilə, ölkəmizin regional və qlobal müstəvidə hədəflədiyi yaşıl prioritetlər, iqlim dəyişikliyi ilə mübarizə və ekoloji balansın qorunması sahəsində atdığı fəal addımların uğurlu təqdimatı tədbiri daha da yaddaqalan edib. Qeyd edək ki, Azərbaycan 2030-cu ilə qədər karbon emissiyalarını azaltmağı hədəfləyən strateji planlar hazırlayıb - dövlətin yaşıl enerji sahəsindəki təşəbbüsləri, alternativ və bərpa olunan enerji mənbələrinə diqqət ayırması, o cümlədən günəş və külək enerjisi sahəsində atılan addımlar xüsusilə diqqəti cəlb edir. Ümumiyyətlə, Azərbaycan 29-cu COP samitinə ev sahibliyi etməklə iqlim məsələlərində ön sıralarda təmsil olunmaq iddiasını əyani surətdə ortaya qoyur - bu, ölkəmizin yalnız enerji sahəsində deyil, həm də ekoloji və iqlim dəyişikliyi ilə mübarizədə beynəlxalq arenada daha fəal iştirak etdiyinin göstəricisidir.

Tədbir qlobal səviyyədə diqqət çəkib - COP29-a gələn dünya liderləri, rəsmi şəxslər, dövlət və özəl sektor, vətəndaş cəmiyyəti nümayəndələri bir araya gələrək iqlim dəyişmələri ilə mübarizə məsələlərini aktiv müzakirəsini təşkil və təmin etdilər. Müzakirələrin nəticələri də göstərir ki, ekologiyanı qorumaq hər birimizin borcudur - əgər planet ekoloji fəlakətə sürüklənərsə, artıq heç bir mövzunun əhəmiyyəti qalmayacaq. Bu mənada Yaşıl Zona vətəndaş cəmiyyəti, gənclər təşkilatları, uşaq təşəbbüsləri üçün bir həmrəylik məkanına, yaşıl dünya naminə birləşmək üçün yeni bir imkana çevrilmiş oldu. Gənclər və uşaqlar beynəlxalq təşkilatların sərgilədiyi stendlərdə sosial xarakterli müxtəlif səhnələr və təqdimatlar, kreativ üsullarla aksiyalar keçirərək ziyarətçilərin iqlim problemlərinə diqqətini cəlb etməyə çalışdılar. Vətəndaş cəmiyyəti təşkilatları müxtəlif tədbir və müzakirələr keçirərək ətraf mühit məsələsində yeni və innovativ yanaşmanın tətbiq olunması, bu sahədə əhali arasında geniş maarifləndirmə işinin aparılması üçün mayak rolunda çıxış edir.Vətəndaş cəmiyyəti instututu Bakı konfransı vasitəsilə dünyaya öz mesajlarını çatdırmaq imkanı və fürsəti qazanmış oldu.




**Dövlət və vətəndaş cəmiyyəti vəhdət halında...**

Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin üzvü, millət vəkili Naqif Həmzəyev "Yeni Azərbaycan"a bildirib ki, ölkəmizə baş tutmuş bu tədbirdə dövlət və özəl sektor, vətəndaş cəmiyyəti vəhdət halında sıx əməkdaşlıq etdi: "Xüsusən regionlarda yaşayan vətəndaşlarımızın COP29-un məqsəd və hədəflərinə çatmaq üçün yerli və milli müzakirələrin keçirilməsi, innovativ həllərin tapılması, daha geniş yaşıl zolaqların, vətəndaş təşəbbüslü alternativ enerji layihələrinin təşviqi və icrasına cəlbolunma mərhələsi vurğulanmalıdır. Məhz bu prosesdə dövlətlə yanaşı özəl sektorun da vətəndaş cəmiyyəti subyektləri ilə yaxından əməkdaşlıq etməsi, dayanıqlı inkişaf məqsədlərindən irəli gələrək yaşıl iş yerləri, sağlam və təmiz ətraf mühit, tullantıların səmərəli idarə olunması ilə bağlı tədbirlər həyata keçirildi. Şübhəsiz ki, bu prosesdə yerli və milli hökumətlərin təşviqedici rolda çıxış etməsi, bu sahədə milli qanunvericiliyin təkmilləşdirilməsi və yeni alətlərin işlənib-hazırlanması məsələnin vacib aspektlərindən sayıla bilər. Yaşıl iqtisadiyyata keçidlə bağlı yerli və regional səviyyələrdə biznes subyektləri və QHT-lərin iştirakı ilə elmi konfransların, forumların, müzakirələrin keçirilməsi, eləcə də bu sahədə maarifləndirmə işinin aparılması əsas hədəflərdən idi. Özəl sektorun ətraf mühitlə bağlı çağırışlara həssaslıqla yanaşması ölkədə yeni iş yerlərinin açılması, vətəndaş cəmiyyətinin dayanıqlılığının artırılmasına öz töhfəsini vermiş olacaq".

**Əvvəlki COP-larda buna şahid olmamışdıq**

N.Həmzəyevin sözlərinə görə, COP29 çərçivəsində sülh mədəniyyətinin təbliği və təşviqi, mədəniyyətlərarası dialoq mövzusu da diqqətdən kənarda qalmadı: "Əslində, COP29 miqyasında müxtəlif qitələri və mədəniyyətləri təmsil edən minlərlə iştirakçının Bakıda bir araya gəlməsi öz-özlüyündə sülh və mədəniyyətlərarası dialoqa mühüm bir töhfə sayıla bilər. Konfrans çərçivəsində sülhün təşviqi və mədəniyyətlərin müxtəlifliyinə hörmət, eyni zamanda, bu sahədə inklüzivliyin təmin edilməsi mövzularının müzakirəsi, Azərbaycanın qlobal səviyyədə sülhün təşviqinə ciddi töhfəsidir. Yalnız bir qitənin deyil, dünyanın bütün ölkələrinin bu prosesdə iştirakı və tərəfdaş olmasının vacibliyini önə çəkmiş olduq. Eyni zamanda, müstəmləkəçiliyin yolverilməzliyi bir daha dünya ictimaiyyətinin diqqətinə çatdırıldı. Azərbaycan məhz bu miqyasda keçirilən beynəlxalq konfransda yeni mədəniyyətlərlə tanış olmaq, Afrika ölkələrindən yeni tərəfdaşlar qazanmaq imkanı əldə etdi. Bu, həm də mədəniyyətlərin inteqrasiyası, Afrika ölkələrində yaşayan xalqların hüquqlarının müdafiəsi, onların qlobal siyasi proseslərdə fəal iştirakına yeni bir çalar qatdı. Bundan əvvəlki COP-larda biz Afrika qitəsindən dövlət və vətəndaş cəmiyyəti təmsilçilərinin belə geniş arealda hüquqlarının qaldırılmasını və səslərinin ucaldılmasının şahidi olmamışdıq ki, bu da məhz COP29 çərçivəsində baş verdi. Eyni zamanda, bu tədbir bizə Afrika ölkələri ilə bütün sektorlarda yeni tərəfdaşlıq imkanları qurmağımıza kömək edəcək".

*Yeganə BAYRAMOVA*

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Məqalə "Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi"nin maliyyə dəstəyi ilə "Vətəndaş cəmiyyəti, hüquqi dövlət quruculuğu" istiqaməti üzrə hazırlanmışdır**




**ABŞ-ın iqtisadi sanksiyaları siyasi məqsədlər daşıyır**

# ABŞ-ın sanksiya siyasəti...

## Artıq bumeranq effekti verməkdədir

**Hazırda dünyada baş verən hadisələr fonunda "sanksiya siyasəti" daha geniş şəkildə tətbiq olunmağa başlayıb. Dünyanın böyük dövlətləri və blokları qarşılıqlı olaraq sanksiyalar tətbiq etməklə öz üstünlüklərini təmin etməyə çalışırlar. Bu mənada son illərdə ən çox sanksiyalara məruz qalan ölkələrdən biri Rusiyadır - Ukrayna ilə müharibə səbəbilə Avropa İttifaqı Rusiyaya qarşı 14 sanksiya paketi qəbul edib. Sanksiya tətbiq edən ölkələr arasında ABŞ-ı lider hesab etmək mümkündür. Yeri gəlmişkən, bir neçə gün öncə ABŞ Maliyyə Nazirliyinin Xarici Aktivlərə Nəzarət İdarəsinin (OFAC) materiallarına əsasən, nazirlik "Qazprombank", "BKS Bank" və "DOM.RF" daxil olmaqla 50-dən çox Rusiya bankına qarşı sanksiyalar tətbiq edib.**

### Vaşinqton Rusiyaya və Çinə qarşı yeni sanksiyalar tətbiq edib

Siyahıya həmçinin "Bratsk Xalq Bankı", "Enerqotransbank", "Kremlevski", "İturup", "Sinara", "BBR", "Fora Bank" və digər banklar da daxil edilib. Bundan əlavə, Rusiyanın maliyyə sektoru ilə əlaqəli şəxslər də sanksiyalara məruz qalıb. Siyahıda xüsusilə Mərkəzi Bankın sədrinin birinci müavini Vladimir Çistyuxin və Dmitri Tulin, Mərkəzi Bankın sədr müavini Olqa Polyakovanın da adı var.

Bundan əlavə, ABŞ Çinə qarşı da çoxsaylı sanksiyalar tətbiq edib. Məsələn, ABŞ administrasiyası gələn həftə Çinin 200-ə qədər çip istehsalçısına təsir edə biləcək yeni ixrac məhdudiyyətləri seriyasını tətbiq etmək niyyətindədir. Bu barədə "Reuters" ABŞ Ticarət Palatasına istinadən məlumat yayıb. Agentliyin məlumatına görə, ABŞ firmalarının əksəriyyətinə bu şirkətləri təchiz etmək qadağan ediləcək. Ümumiyyətlə, ABŞ indiyə qədər Çinə Tayvan, Honkonq, insan hüquqları, silah satışı və s. səbəblərə görə müxtəlif sanksiyalar tətbiq edib.

### Çin cavab addımları atır

Lakin Çin də ABŞ-ın bu sanksiyalarına seyrçi qalmayaraq müvafiq addımlar atır. Məsələn, bu ilin may ayında Çinin Kommersiya Nazirliyi ABŞ-ın bir neçə şirkətini Tayvana silah satışında iştirakına görə "Etibarsız qurumlar siyahısı"na salıb. "Qara siyahı"ya salınanlar "Boeing Defense, Space & Security", "General Atomics Aeronautical Systems" və "General Dynamics Land Systems" şirkətləridir. Onlara Çinlə idxal-ixrac əməliyyatları aparmaq, Çinə sərmayə yatırmaq qadağan olunub. Bundan başqa, şirkətlərin yüksək vəzifəli şəxslərinin Çinə girişinə icazə verilməyəcək. Çin hökuməti qərarın ölkənin milli suverenliyini, təhlükəsizliyini və inkişaf maraqlarını qorumaq üçün qəbul edildiyini açıqlayıb.

Bütün bunların ardınca, Çin ABŞ-ın daha 12 şirkətinə və 10 fərdi şəxsinə sanksiyaya qarşı sanksiya tətbiqinə başladığını bəyan edib. Çin Xarici İşlər Nazirliyinin açıqlamasına əsasən sanksiya tətbiq edilən müəssisələr arasında "Lockheed Martin"in raket və atəş nəzarəti törəmə şirkəti, "Raytheon"un raket sistemləri törəmə şirkəti, fərdlər arasında isə "General Dynamics Information Technology"nin rəhbər şəxsləri də var. Çin Kommunist Partiyasının rəsmi nəşrlərindən olan "Global Times" qəzetinin yazdığına görə, bu, həm Rusiyaya dəstək bəhanəsi ilə ABŞ-ın Çinin bir neçə müdafiə sənayesi şirkətinə sanksiya tətbiqi ilə bağlı son qərarına, həm də sözügedən şirkət və fərdlərin Tayvana silah tədarükündə iştirakına Pekinin cavabıdır. Pekinin qərarı ABŞ-ın bu cür addımlarının cavabsız qalmayacağını göstərir.



### Politoloq: Sanksiyalar daha çox siyasi məqsədlərə xidmət edir

Böyük dövlətlərin sanksiya siyasətinin gerçək məqsədi nədir və bu, ciddi nəticələrə gətirib çıxarırmı? Məsələ ilə bağlı qəzetimizə açıqlama verən politoloq İlyas Hüseynov bildirib ki, sanksiya hər hansı bir dövlət qurumu və ya bir qrup dövlət tərəfindən müəyyən səbəblərlə digər dövlətə və ya quruma tətbiq edilən cəza sistemidir. Onun sözlərinə görə, sanksiya dövlətlərin və beynəlxalq təşkilatların tətbiq etdiyi "məcburetmə üsulu" kimi də qiymətləndirilə bilər. Ən geniş tətbiq olunan növü iqtisadi sanksiyadır. İqtisadi sanksiyalar müxtəlif siyasi, hərbi və sosial məsələlərə görə də tətbiq oluna bilər. Eləcə də, daxili və beynəlxalq məqsədlərə nail olmaq üçün istifadə edilə bilər. Qeyd etmək lazımdır ki, sanksiyaların effektivliyi mübahisəlidir və gözlənilməz nəticələrə də səbəb olur.

ABŞ-a gəlincə, politoloq hesab edir ki, Birləşmiş Ştatlar dünyaya hegemonluq etmək iddiasındadır. Ona görə də, Vaşinqton onun maraqlarına zidd siyasət həyata keçirən ölkələri hədəfə alır. "Burada subyektiv amillər də əsas rol oynayır. ABŞ istəyir ki, bütün ölkələr onun istəyinə uyğun siyasət yeritsin, amma bu mümkün deyil. Məsələn, Rusiyaya tətbiq edilən ağır sanksiyalar istənilən nəticəni vermir. Eləcə də, Çin Xalq Respublikasına sanksiyalar yolu ilə ciddi təzyiq etmək mümkün deyil. Çin dünyada iqtisadiyyatı ən güclü olan iki dövlətdən biridir. ABŞ-ın iqtisadi sanksiyaları siyasi məqsədlər daşıyır. Amma bu sanksiyalar əks-effekt də verə bilir. Məsələn, Avropa şirkətləri etiraf edirlər ki, Rusiyaya tətbiq olunan sanksiyalardan özləri də kifayət qədər əziyyət çəkirlər. Çünki Rusiya bazarı bu şirkətlər üçün çox əhəmiyyətlidir. Eyni zamanda, onlar Rusiyadan kifayət qədər xammal alırlar. Sanksiya nəticəsində həmin xammalı başqa ölkələrin şirkətlərindən baha qiymətlərə almalı olurlar. Eləcə də, Çinə qarşı sanksiyalar bumeranq effekti verə bilir. Təsadüfi deyil ki, Rusiya, ABŞ, İran və digər böyük dövlətlər ticarət əlaqələrində dollardan imtina etmək istiqamətində addımlar atırlar. Bu da ABŞ-a iqtisadi baxımdan zərbə vurur. Bütün bunların fonunda Birləşmiş Ştatların sanksiya siyasəti gözlənilən nəticəni verməyəcək",-deyə İ.Hüseynov vurğulayıb.

*N.BAYRAMLI*

# NATO Baş katibi Türkiyəyə gəlir...

## Alyans terrorla mübarizədə səylərini gücləndirməlidir

Noyabrın 25-də NATO-nun Baş katibi Mark Rutte Türkiyəyə səfər edəcək. Bu barədə alyansın mətbuat xidməti məlumat yayıb. Bildirilib ki, blokun başçısı Ankarada Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan, habelə xarici işlər naziri Hakan Fidan və müdafiə naziri Yaşar Gülərlə danışıqlar aparacaq. "Baş katib Türkiyə müdafiə sənayesi nümayəndələri ilə görüşəcək və Türk Hava Yolları Sənayesinin (TUSAŞ) obyektlərinə baş çəkəcək. O həmçinin Anıtqəbirə, Atatürkün məqbərəsinə əklil qoyacaq", - deyə mətbuat xidmətindən məlumat verilib.

### Mark Rutte NATO-nu daha da gücləndirmək istəyir

Qeyd edək ki, M.Rutte bu ilin oktyabrından NATO-nun Baş katibi vəzifəsini icra etməyə başlayıb. NATO-nun yeni Baş katibi kimi o, alyansı gələcəyin çağırışlarına hazırlayacağını, maliyyələşdirməni artıracağını və innovasiyaları stimullaşdıracağını elan edib. O, birinci prioritetin NATO-nu güclü saxlamaq və bütün təhdidlərə qarşı effektiv müdafiəni təmin etmək olduğunu bildirərək deyib: "Bunun üçün bizə daha çox qüvvə, daha yaxşı imkanlar, daha sürətli innovasiya tempi lazımdır. Bu, daha çox investisiya tələb edəcək". Baş katibin sözlərinə görə, NATO ölkələri müdafiəyə daha çox pul xərcləməli olacaq, çünki "mövcud çağırışlar və gələcək vəzifələrin" həlli üçün pulsuz alternativ yoxdur.

### Türkiyənin gözləntiləri...

Vəzifəni təhvil alarkən Rutte Ukrayna müharibəsini və alyansın müdafiə xərclərinin artırılmasını prioritet hesab etdiyini də deyib. Təsadüfi deyil ki, o, alyansın rəhbəri kimi ilk xarici səfərini Ukraynaya edib. Rutte Baş katib kimi Türkiyəyə də ilk səfərini edəcək. Xatırladaq ki, Rutte hələ bu vəzifəyə namizəd olarkən Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın onunla telefon danışığı olmuşdu. Ərdoğan Rutteyə Türkiyənin alyansın yeni rəhbərindən gözləntilərini çatdırmışdı. Onun sözlərinə görə, yeni Baş katib terrorizm və digər çağırışlarla mübarizədə üzvlərin təhlükəsizliyi və maraqlarına ən yaxşı şəkildə xidmət etməli, alyansın birliyini gücləndirməli və NATO-nun əsas roluna üstünlük verərək müəyyən edilmiş təcrübələrə riayət etmək üçün inandırıcı öhdəliklər götürməlidir. Türkiyə Prezidenti bildirmişdi ki, Avropa İttifaqının üzvü olmayan müttəfiqlərin maraqları da nəzərə alınmalıdır.

Türkiyə Prezidenti bu mövqeyini iyulda ABŞ-da keçirilmiş NATO-nun sammitində də səsləndirib. Rəsmi Ankaranın mövqeyi bundan ibarətdir ki, NATO terrorla mübarizə istiqamətində səylərini gücləndirməlidir. Ərdoğan ABŞ-da keçirdiyi görüşlərdə bu məsələni xüsusilə diqqətdə saxlayıb. Türkiyənin mövqeyi həm də ondan ibarətdir ki, NATO Rusiya-Ukrayna müharibəsinin tərəfi olmamalıdır.



### NATO-nun ikinci ən böyük ordusu...

Nəzərə almaq lazımdır ki, Türkiyə NATO-nun ikinci ən böyük ordusuna sahibdir. Qlobal münaqişə potensialı olan bəzi məsələlər, xüsusən Rusiya-Ukrayna müharibəsi NATO-nun təhlükəsizlik problemlərində sadəcə əməkdaşlıq və həmrəylik təşkilatı olmaqdan savayı, həmçinin müəyyən addımlar atmalı olduğunu göstərir. Bu funksiyalardan ən mühümü NATO-nun çəkindirmə və təhlükəsizlik perspektivinə malik olmasıdır. Lakin bundan əlavə, onun həm də sülh missiyası olmalıdır. Rəsmi Ankara hesab edir ki, alyans sülhü bərqərar etmək üçün öz vəzifələrini yenidən nəzərdən keçirməlidir.

O cümlədən, Türkiyə və ABŞ NATO müttəfiqləri olsa da, bir sıra məsələlərdə ciddi fikir ayrılıqları var. Türkiyə-ABŞ münasibətlərində son illərdə Vaşinqtonun Suriyanın şimalında terror qruplaşması YPG/PYD/PKK-ya verdiyi dəstək və Türkiyənin 2017-ci ildə Rusiyadan S-400 hava hücumundan müdafiə sistemi alması ilə bağlı fikir ayrılıqları səbəbindən problemlər yaranıb. Strateji tərəfdaşlığa və bir çox sahədə sıx əməkdaşlığa baxmayaraq, ABŞ PYD-yə maddi-texniki, kəşfiyyat və siyasi dəstək verməyə davam edir. Bu da rəsmi Ankara tərəfindən ciddi etirazla qarşılanır. Yəqin ki, NATO Baş katibi Ruttenin Türkiyəyə səfəri zamanı bu bu və digər məsələlər xüsusi diqqət mərkəzində olacaq.

*Nardar BAYRAMLI*

# Bayden III Dünya müharibəsinin "müəllifi" olacaq?

## ABŞ prezidenti səlahiyyət müddətinin sonuna az qalmış qlobal qarşıdurma yaradır

### Vaşinqtonun "B" planı - Avropa hədəfdə...
### Uzaq Şərqdən "silah səsləri" eşidiləcəkmi?

Hazırkı qlobal situasiya obrazlı şəkildə "Dünya müharibəsinə sürətli keçid" kimi təsnifatlandırılsa da, bu fakt hələ ki, real olaraq təsdiqlənmir. "Dünya müharibəsi" anlayışının mahiyyətinə nəzər yetirsək, bu ən pis halda planetar miqyası əhatə edən, ən optimal halda isə bir neçə ölkənin qoşulduğu hərbi əməliyyatlar sayıla bilər. Baş verə biləcək bu qlobal silahlı münaqişə Birinci və İkinci Dünya müharibələrindən sonra sayca üçüncü hadisəyə çevriləcək - bəzi hərbi ekspertlər isə, baş vermə ehtimalı təqdirində III Dünya müharibəsini "sonuncu müharibə" belə adlandırırlar. Bu müharibədən sonra dünya əvvəlki kimi "öz oxu ətrafında" sakit fırlana bilməyəcək.

### İki onilliyin qovşağında...

Qeyd edilməlidir ki, XXI əsrin başlanğıcından etibarən qlobal siyasi proseslər yenidən fərqli məcraya qədəm qoydu - SSRİ-nin dağılması ilə özünü dünyanın yeganə qütbü sayan Qərb koalisiyası (ABŞ-ın rəhbərliyi ilə) qarşı tərəfin bu qısa müddətdə toparlana biləcəyini təsəvvür etmirdilər. Cəmisi 10 il (1991-2001) ərzində ideoloji sarsıntılar adlayan, iqtisadi transformasiya yaşayan keçmiş sosialist "qütbün" qısa zamanda özqünə gələcəyini proqnozlaşdırmayan Qərb koalisiyası son 10 ildə (2014-2024) artıq özünün iddialarını, ambisiyalarını tam olaraq ortaya qoya bilmir - daha əvvəlki kimi, "əlləri çatan" post-sovet ölkələrində siyasi hakimiyyətə təsir rıçaqları yarada bilmirlər. Bu isə Qərbi, xüsusilə ABŞ-ın hazırkı hakimiyyətini "qıcıqlandırır". "Şərqə doğru genişlənmə" planı adı altında həyata keçirilən gizli missiyanın Ukraynada "ilişib qalması" ilə heç cür barışmayan Bayden və komandası hakimiyyətlərinin son aylarını qlobal miqyasda "yaddaqalan" etməyə çalışır. Başqa sözlə, Bayden tarixə III Dünya müharibəsinin "müəllifi" kimi düşmək istəyir...



### Müharibə riski artır...

Beləliklə, proseslərin gedişi onu göstərir ki, hələ başlamamasına və bütün dünya hökumətlərinin də bunun baş verməməsi üçün səy göstərməsinə baxmayaraq, III Dünya müharibəsi tamamilə də qeyri-mümkün sayıla bilməz - bütün dünyanın münaqişəyə cəlb olunacağı bir çox ssenarilər belə mövcuddur. Hətta Asiyada başlanan hazırlıq prosesləri, hərbi ittifaqların yaradılması, mövcud birliklərin daha da gücləndirilməsi ortadakı fikri möhkəmləndirir...

Üçüncü Dünya müharibəsinin ən təhlükəli məqamı isə ondan ibarətdir ki, bəşəriyyət nüvə silahı təhdidi ilə üz-üzə dayanıb - bu o deməkdir ki, nüvə ölkələri arasında münaqişə başlanacağı təqdirdə, olduqca böyük dağıntılardan və fəlakətlərdən heç kim sığortalanmayacaq.

### Qərb ABŞ prezidentini ittiham edir

Co Baydenin öz kreslosunu tərk etməmişdən qabaq Üçüncü Dünya müharibəsi başlatması ehtimalı ABŞ-da da təsdiqlənir. Bu barədə Nyu-Cersi Ali Məhkəməsinin keçmiş hakimi Endryu Napolitano sosial şəbəkədə yazıb. "Bayden Ağ Evi tərk etməzdən iki ay əvvəl Üçüncü Dünya Müharibəsini başlada bilər!" - o anons edib və ATACMS raketləri ilə Rusiyanın dərinliklərinə edilən hücumları Moskva üçün "qırmızı xətt" adlandırıb. Amerikalı hüquqşünas bunu NATO-nun Ukraynadakı münaqişədə birbaşa iştirakı adlandırıb.

Britaniya İrs Partiyasının lideri Devid Kerten də Baydenin Ukrayna Silahlı Qüvvələrinə (AFU) Rusiya ərazisinin dərinliklərinə uzaqmənzilli ATACMS raketləri ilə zərbələr endirmək icazəsini "ağılsızlıq" adlandırıb. Onun sözlərinə görə, bu qərar Üçüncü Dünya müharibəsinin başlaması ilə ən böyük səbəb və hədədir.

### Media Baydeni günahkar bilir

Vurğulayaq ki, Amerika mediası da Baydeni qlobal fəlakət yaratmaq cəhdində qınayır və ittiham edir. Onun Ukraynaya ballistik raketlərin verməsini və Rusiyanın dərinliklərinə hücum əmrinə "imza atmasını" ABŞ tarixinin ən səhv qərarı adlandırırlar. Amerikalı jurnalist və ictimai-siyasi fəal Çarli Kirk o fikirdədir ki, Baydenin Kiyev rejiminə ATACMS taktiki raketləri ilə Rusiya ərazisinin dərinliklərində zərbə endirməsinə icazə verməsi yeni dünya müharibəsinin başlamasına səbəb ola bilər. X sosial şəbəkəsindəki (keçmiş Twitter) səhifəsində jurnalist ilk növbədə Rusiya ərazisinə bu cür hücumun Kremlin güzgü cavabına səbəb olacağını və onların haqlı vəziyyətə düşəcəyini vurğulayır. "Bayden Üçüncü Dünya müharibəsinə başlamağa çalışır. Bu, normal deyil və tamamilə dəlilikdir. Təsəvvür edək ki, Rusiyanın Amerikaya atması mümkün olan raketləri olsa idi nələr baş verəcəkdi", - deyə Kirk yazıb.

Rusiyanın "Milli Müdafiə" hərbi jurnalının redaktoru, hərbi ekspert İqor Korotçenko da uzaqmənzilli raketlərin hücumlarından sonra Kiyev üçün mümkün nəticələrdən danışıb. Onun fikrincə, Rusiya cavab tədbiri olaraq Kiyevdəki qərar qəbuletmə mərkəzlərini və Ukraynanın kritik enerji sisteminin obyektlərini məhv edə bilər ki, bu da ölkənin bütün idarəetmə sistemini iflic vəziyyətinə salacaq.

### ABŞ raketlərin sayını demir - təhlükə hər an böyüyür

Beləliklə, Qərbin bəzi siyasi mütəxəssislərinin Baydenin qərarını açıq kontekstdə təftiş etdiyinin və səhv qərar adlandırdığının şahidi oluruq. Təbii ki, bu təhdid daha çox Avropa məkanı üçün təhlükəli sayılır. Bayden öz qərarı ilə "köhnə qitə"ni hədəf halına gətirib. Ən qorxulu məqam isə Baydenin Ukraynaya neçə raket verdiyini açıqlamamasıdır - hətta Pentaqonun sözçüsü Sabrina Sinq jurnalistlərə dəqiq neçə ATACMS raketinin Kiyevə ötürüldüyünü söyləməkdən imtina etmişdi. Demək ki, Avropa "tüfəngin lüləsinin ucunda" dayanan açıq hədəfdir. Okeanın o tayından müharibə istərikası yaradan Bayden administrasiyası hazırkı mərhələdə (yəqin ki, qarşıdakı mərhələdə də) sadəcə müşahidəçi qismində yer alacaq. Son iki ayda nələrin baş verə biləcəyini təsəvvür belə etmək mümkün deyil - Bayden son 2 aylıq prezidentliyi dövründə bəşəriyyəti hansı təhlükələrə daşıyır, bunu dərk etmək çətindir.

Avropa isə həm iqtisadi, həm hərbi, həm də siyasi çəmbərin tən ortasında qalıb. Ard-arda "imzalanan" sanksiyalar qütblər arası münasibətləri daha da gərginləşdirib - üstəgəl, Avropanın enerji təminatının yenidən "sual altına" düşmə ehtimalı ortadadır. Bu halda Avropanın necə "duruş gətirəcəyini" heç Bayden də təsəvvür edə bilməz. Hazırki vəziyyətdə Avropa məkanının hər hansı müharibə aparmaq imkanı siyasi ekspertlər tərəfindən qeyri-real dəyərləndirilir...

### Avropa çəmbərin mərkəzində - yeganə çıxış yolu Almaniya nümunəsidir

Rusiya isə yenə də "tərəzinin gözünün" əyilməsini gözləyir. Birinci hücuma qarşılıq olaraq "Oreşnik" raketinin işə salınması Kremlin ciddiyyətini ortaya qoyub. Yeri gəlmişkən, Rusiya Federasiyası Təhlükəsizlik Şurası sədrinin müavini Dmitri Medvedev də Al Arabiya telekanalına verdiyi müsahibəsində Rusiyanın yeni nəsil raketi "Oreşnik"in Ukrayna münaqişəsinin gedişatını əhəmiyyətli dərəcədə dəyişə biləcəyini bildirib. Medvedevin sözlərinə görə, bu raket texnologiyası müasir müharibə şəraitində Rusiyanın hərbi üstünlüyünü artıracaq və regionda balansı dəyişdirə bilər. "Oreşnik" raketinin texniki xüsusiyyətləri açıqlanmasa da, onun yüksək dəqiqlik və dağıdıcı gücə malik olduğu vurğulanır. Müsahibə zamanı Medvedev, Qərbin Ukraynaya hərbi yardımlarını davam etdirməsinin münaqişənin uzanmasına gətirib çıxardığını və Rusiyanın bu cür texnologiyalarla müvafiq cavab verdiyini qeyd edib.

Yəni, Moskvanın qarşıdurma ilə bağlı "mesajı" "Baydenin sözünə aldanmayın" şəklindədir. İki aylıq hakimiyyət müddəti qalmış Bayden özündən sonra dağıntılar altında faciə yaşayacaq dünya qoyub getməkdə maraqlı görünür. Avropanın bu planda istifadə olunması isə özünün qətiyyətindən asılı olacaq. Məsələn, ortada Almaniya nümunəsi var - kansler Olaf Şolts birmənalı şəkildə Rusiyaya qarşı raket hücumlarında iştirakçı olmayacağını bildirməklə, ölkəsinin qlobal qarşıdurmaya münasibətini açıqlayıb. Şoltsun bu mövqeyi və davranışı digər Avropa "qrandları" üçün də nümunə olmalıdır - qlobal müharibədən yayınmaq üçün ən real fəaliyyət məhz budur.

### Koreya yarımadasında müharibə "təbili" səslənir...

Vurğulandığı kimi, Mərkəzi Avropada cərəyan edən hadisələr bütün dünyanı əhatə etməkdədir. Yaponiyanın "Asiya NATO-su"nun yaradılması perspektivlərini müzakirəyə çıxarmaq istədiyi bu günlərdə Koreya yarımadası "döyüşlərə hazır" vəziyyətə gətirilib. Qeyd edək ki, Bryanska atılan raketlərdən sonra Şimali Koreyanın rəhbəri Kim Çen In ordunun müharibəyə hazırlanmasının vacibliyini açıqlayıb. O, ABŞ-ı və Cənubi Koreyanı Koreya yarımadasında "görünməmiş gərginlik" yaratmaqda ittiham edib. Onun sözlərinə görə, ABŞ və müttəfiqləri Ukraynadan "zərbə vuran qüvvə" kimi istifadə edərək Rusiyaya qarşı müharibə aparır, hətta dünyanın digər regionlarında da münaqişələri gücləndirir.

***P.İSMAYILOV***

# Yoxluğun verdiyi azadlıq

## Fridrix Hölderlinin "Hiperion, yaxud Yunan zahidi" romanı haqqında

*əvvəli ötən sayımızda*

Bəzən "Hiperion"un fəlsəfəsini Platona, ələlxüsus da neoplatonizmə bağlamağa çalışırlar. Mənə qalsa, bu yanaşma doğru deyil. Doğrudur, böyük şair antik dövrü, qədim yunan tanrılarını, Afina həyatını idealizə eləyirdi, uşaqlığını, yeniyetməliyini dindar çevrədə, keşiş məktəbində keçirdiyinə baxmayaraq hətta İsa Məsihi də antik tanrılar panteonunun sonbeşiyi sayırdı. Bununla belə, onu nə platonizmin, nə də Şellinq, Hegel kimi cavanlıq dostlarının yedəyinə bağlamaq olmaz.

Hölderlin, hər bir mütəxəssisin sözsüz razılaşdığı kimi, insanın təbiətlə əzəli vəhdətinin həsrətini çəkən, dondan-dona girən sərgərdan panteist, ana təbiətin südündən yanıq körpəsidir. Panteizmlə mistik monizmi əslə qarışdırmaq olmaz. Panteizmdə vahid mərkəz, ruhların ümumi toplanış məntəqəsi, vəhdəti yoxdur; panteizm materializmin astar üzü, təbiətin tanrılaşdırılmasıdır, onun insana bəlli, şüura çatımlı bir məntiqi də yoxdur. Panteist üçün insan təbiətin (yəni panteizm tanrısının) qeyri-üzvi varlığdan üzvi varlığa çevirib sonra da geri aldığı bir ovuc torpaq, bir üfürüm kül, neoplatonik üçünsə kosmik şüurun gəzdirdiyi, ilahi ağılın söykəndiyi düşünən əsadır (Paskal).

Hölderlinin fikir əcdadlarını axtarırıqsa, zənnimcə, Heraklitdən, Empedokldan (şairin "Empedoklun ölümü" adlı dramatik poeması da var), Demokritdən, Epikürdən, stoaçıların babası Zenondan üzübəri baxmalıyıq. Bu axtarışda bir az da uzağa gedib daosizmə, buddizmə yaxınlaşsaq, heç də yolumuzu azmış olmarıq.

***

Əsər də, onun lirik qəhrəmanı da avtobioqrafikdir - müəllifin ömürlüyü üzərində bir az geniş dayanmağımız da buna görəydi. Hölderlin yunan xalqının azadlığı uğrunda Bayrondan fərqli olaraq xəyali mübarizəyə qalxsa da, sonda Şillerin qəhrəmanı kimi əməlindən peşman olur.

Romanda konkret zaman göstərilməsə də, bəzi məlum tarixi hadisələrə işarələrdən anlaşılır ki, Hiperionun məktubları on səkkizinci əsrin üçüncü rübündə qələmə alınıb. Vətəninin istiqlalı uğrunda osmanlı işğalına qarşı silahlı üsyana qalxan bu yunan oğlu başı daşdan-daşa dəyəndən sonra anlayır ki, belə müqavimətin heç kəsə bir faydası yoxdur. Onun mübariz, yurdsevər əsgərləri elə ilk fürsətdəcə talana qurşanırlar, onları xalq, vətən qarşısında borc hissi yox, tamah, nəfs hərəkətə gətirir. Bu kimi mənzərələr Hiperionu siyasi-ictimai ideallardan, daha doğrusu, illüziyalardan küsdürür, onu tərkidünyalığa sövq eləyir. Lirik qəhrəmanın silahlı yolla, zorakı metodlarla vətəninə, xalqına xoşbəxtlik gətirəcəyinə heç bir ümidi qalmır. Eynən "Qaçaqlar"ın atamanı Karl Moor kimi o da cinayətə qarşı cinayətkar üsullarla savaşmaqdan üz döndərir.

Bundan sonra Hiperion mübarizəni xarici düşmənlə yox, daxili düşmənlə, yəni özüylə aparacaq. O, praqmatik-gerçəkçi düşüncənin verdiyi silahı yerə qoyub, poetik-asketik şüurla silahlanır, üstünə gələn həyata qarşı dinc müqavimətə keçir, dünyadan nəsə qoparmaq yox, özünü dünyadan almaq yolu seçir.

***

Ancaq bu yolun da öz çətinlikləri var. Gərək elə bir etibar qazanasan ki, ana təbiət sənə qucaq açsın, səni köynəyindən keçirsin, sənə döşündən süd versin. Hiperion Bellarminə məktubunda çox həyəcan keçirdiyini yazır: görəsən, o, qəlbinin dağılmış nizamını, pozulmuş harmoniyasını geri qaytara biləcəkmi, bir adada keçmiş uşaqlığının saf arzularını, məsum ümidlərini yenə dada biləcəkmi?

Onun yetişməyində müəllimi Adamasın çox böyük rolu olub. Adamas ona antik dövrün gözəllik ideallarına, indi xarabalıqları qalmış keçmişin şərəfli səhifələrinə, həm igid, həm də müdrik əcdadlara sevgi, pərəstiş aşılayıb.

Dostu Alabanda ilə yolları da düşüncə fərqinə görə ayrılır. Hər iki gənc vətənini əsarətdən qurtarmağı arzulayır, ancaq fərqli üsullarla. Alabanda realist düşüncəli əməl adamıdır, sərt addımlardan, radikal metodlardan çəkinən, gerçək əsasdan məhrum xəyallara qapılan deyil. Hiperion ona insanları "gözəllik teokratiyası" işığında tərbiyələndirmək lazım olduğunu deyəndə Alabanda belə mülahizələri boş, mənasız xülya adlandırıb onunla söz davasına çıxır, bu səbəbdən dostların arası dəyir.

Hiperion bundan sonra dərin böhran keçirir, dünya onun gözlərində soluxub əlvanlığını itirir. Yenidən tənhalığına çəkilib dəniz kənarında təbiətlə üz-üzə qalanda qəlbindəki həyat çırpıntıları yeni bir həvəslə oynağa qalxıb kainatla arasındakı sərhədi silir, ana təbiət onu yenə beşiyində yırğalayır.

***

Doğma beşiyə qayıdandan sonra o, sevgisini - Diotimanı kəşf eləyir. Qız onun haqqında çox yüksək fikirdədir, əmindir ki, Hiperionun vətəni azadlığa qovuşdurmaq, xalqı tərbiyələndirmək kimi ali missiyası var, hərçənd Diotima özü də zorakılığa qarşıdır, hətta müstəqil dövlət qurmaq naminə belə gücə əl atmağın tərəfdarı deyil. Hiperion isə sevgi, xoşbəxtlik dənizində boğulmaqdaykən qazandığı ruhani müvazinətin, könül dincliyinin ona baha başa gələcəyini duyur.

Bu vaxt Alabanda ona yunan patriotlarının hücuma keçəcəyi barədə məktub göndərir. Hiperion sevgilisiylə sağollaşıb ölkəsinin azadlığı uğrunda savaşan fədailərin sırasında yer tutmağa tələsir. Onun qələbəyə böyük ümidi olsa da, döyüş məğlubiyyətlə nəticələnir. Söhbət qüdrətli türk ordusuna yenilməkdən getmir, burada qeyri-adi heç nə yoxdur, dərindən götürəndə bu, heç məğlubiyyət də deyil, hərbi cəhətdən rəqibdən zəif olmaqdır. Əsl məğlubiyyət başqadır.

Hiperion görür ki, milli azadlıq ordusunun əsgəri hər an nahaq qan tökməyə, yoxsulu, acizi qarət eləməyə, varlını talamağa hazır durub, onu heç nəylə saxlamaq mümkün deyil. Ən ağırı budur ki, azadlıq kimi müqəddəs amal uğrunda mübarizəyə qalxan qiyamçı ordu öz xislətinə, öz nəfsinə məğlub olub, azadlığını özüylə savaşda itirib. Belə başıpozuq həramı dəstəsiylə, belə azğın quldurlarla yer üzündə cənnət yaratmaqmı olar?..

***

Hiperion bu qərara gəlir ki, onu yurddaşlarıyla artıq heç nə birləşdirmir, buna görə də rus donanmasında qulluğa girir. İndi onun qismətində qəriblik, atılmışlıq var, hətta doğma atası da dönük oğlundan üz döndərib. Ancaq Hiperionun hədəfi şan-şöhrət, qəhrəmanlıq, sərvət, rahatlıq deyil, onun məqsədi Balkan müharibəsinə yollanan Vronski ("Anna Karenina") kimi nahaq gülləyə tuş gəlmək, ucuz ölüm tapmaqdır.

İstefaya çıxandan sonra, nəhayət, Diotima ilə birlikdə Alp dağlarının ətəklərində, ya Pireney yarımadasında dinc, məsud həyata qovuşmağı arzulayır, ancaq sevgilisi artıq dünyadan köçüb. Xoşbəxtlik üçün imkan olanda şərait olmur, şərait yarananda da xoşbəxtlik olmur.

Beləcə, bu dünyada sonuncu təskinliyi də Hiperionun əlindən sürüşüb çıxır. Yadına düşür ki, bir vaxt müəllimi Adamas onun taleyini üzünə oxumuşdu: sənin kimi adamlar əbədi tənhalığa, sərgərdanlığa, narazılığa məhkum olunublar...

***

Bu taledən, qismətdən necə qurtulmaq olar? Yalnız ona bir zahid müdrikliyi, bir stoik səbriylə özxoşuna təslim olmaq hesabına. Kimsəsiz bir adada bir komaya çəkilib gedənlərə ağlamaq, çin çıxmayan arzuları dəfn eləmək, təbiətə, bir də antik çağların ideallarına tapınmaq, insanın tənhalığına xələl gətirən hər dürlü ideyadan, boynuna qılınctək enən hər dürlü mücərrəd anlayışdan aralı durmaq, dünyanı dar pəncərədən, həyatın sahilindən seyrə dalmaq, axırda da ana təbiətin yumşaq dizinə baş qoyub yuxuya getmək, ana-bala arasındakı sərhədi biryolluq götürmək.

Başqa sözlə, panteizm dəryasına baş vurub əbədi yoxluqdan doyumsuz zövq almaq. Hiperionun xoşbəxtlik resepti budur. Onun müəllifi o hüdudsuz yoxluğun verdiyi azadlığı hələ bu dünyadan köçünü sürməmiş dadmışdı.



***F.Uğurlu***

# "Asiya NATO-su" müzakirəyə çıxarılır

## İdeya yaxın gələcəkdə reallaşa bilərmi?

***Nardar BAYRAMLI***

Yaponiyanın yeni Baş naziri Siqeru İsibanın sədrlik etdiyi hakim Liberal Demokrat Partiyası onun tərəfdarı olduğu ideyanı - "Asiya NATO-su"nun yaradılması perspektivlərini gələn həftə müzakirəyə çıxaracaq. "Kyodo" agentliyinin məlumatına görə, müvafiq ideyanın müzakirəsi üçün partiya daxilində yeni struktur yaradılacaq.

**İdeya müəllifi...**

Xatırladaq ki, 67 yaşlı Siqeru İsiba bu ilin oktyabrında Baş nazir seçilib. O, bu yüksək posta qədər bir sıra yüksək vəzifələrdə çalışıb. Belə ki, 2002-ci ildən 2004-cü ilədək Yaponiya Müdafiə Agentliyinin baş direktoru, 2007-ci ildən 2008-ci ilədək müdafiə naziri, 2008-ci ildən 2009-cu ilədək kənd təsərrüfatı, meşəçilik və balıqçılıq naziri vəzifələrində işləyib. 2012-ci ildə LDP-nin baş katibi, 2014-cü ildən 2016-cı ilədək yerli iqtisadi dirçəliş və əhalinin azalması ilə mübarizə məsələləri üzrə nazir vəzifəsini tutub.

Yeni Baş nazir hələ seçkiqabağı açıqlamalarında ölkəsini yüksək inflyasiya zonasından çıxaracağına söz verib. O, bərpa olunan enerji hesabına nüvə enerjisindən asılılığı azaltmağın tərəfdarıdır. Tokionun Vaşinqtonla müttəfiqliyinin möhkəmləndirilməsinin vacibliyini bildirən Siqeru İsiba regional təhdidlərə cavab olaraq NATO-nun Asiya versiyasını yaratmağı təklif edib. Siqeru İsiba Yaponiyanın müdafiə qabiliyyətinin gücləndirilməsinin, regionda "Asiya NATO-su" və kollektiv təhlükəsizlik sisteminin qurulmasının tərəfdarı olduğunu bildirib. O, həmçinin Hudson İnstitutu üçün yazdığı məqalədə ABŞ-ın nüvə raketlərinin Asiya regionunda yerləşdirilməsini və həmin silahlara "birgə sahiblik" perspektivinin müzakirə olunmasını təklif edib.

**Rəqiblər fəallaşır - Tokio narahatdır**

Bəs Yaponiya Baş nazirinin belə ideya irəli sürməsinə səbəb nədir? Nəzərə alaq ki, son zamanlar Rusiya, Şimali Koreya və Çin Xalq Respublikası hərbi əməkdaşlığı genişləndirir. Rusiya Prezidentinin Çinə, ardından isə Koreya Xalq Demokratik Respublikasına etdiyi səfərlər ABŞ və müttəfiqlərində narahatlıq yaradıb. Bu kimi səfərlər ən azından "real sərhəd"i müəyyənləşdirir - Rusiyanın üzünü şərqə və cənuba çevirməsinin ardında dayanan səbəblər kifayət qədərdir. İlk növbədə Çin hazırda dünyanın aparıcı iqtisadi-hərbi güclərindən biri sayılır, KXDR isə ABŞ ilə real düşmən mövqeyindədir.



**Şimali Koreyadan müharibə xəbərdarlığı**

Təsadüfi deyil ki, bugünlərdə Şimali Koreya Müdafiə Nazirliyi ABŞ-ın Koreya yarımadasındakı davranışlarının müharibəyə səbəb ola biləcəyini bəyan edib. "Bu gün hərbi-siyasi vəziyyət ABŞ-ın dövlətimizə qarşı hər an real müharibəyə çevrilə biləcəyini proqnozlaşdırır", - deyə nazirliyin rəsmisi Koreya Respublikası və Yaponiyanın iştirak etdiyi "Freedom Edge" təlimlərini, "Kolumbiya" sualtı gəmisinin Pusana səfərini və RC-135S kəşfiyyat təyyarəsinin uçuşunu xatırladıb. "Biz qəti şəkildə xəbərdarlıq edir və tələb edirik ki, ABŞ və onun peykləri Koreya yarımadasında və onun ətrafında əsl silahlı münaqişəyə gətirib çıxara biləcək növbəti təxribatçı hərəkətlərini dərhal dayandırsın", - deyə Şimali Koreyanın Müdafiə Nazirliyinin mətbuat katibi bəyan edib.

Müdafiə Nazirliyinin rəsmisi özünümüdafiə və təhlükəsizlik tədbirlərinin görülməsinin, regionda qüvvələr bərabərliyinin təmin edilməsinin Şimali Koreya silahlı qüvvələrinin konstitusion vəzifəsi olduğunu bildirib: "Koreya Xalq Ordusu ABŞ və müttəfiqlərinin hərbi hərəkətlərini yaxından izləyir və tam döyüş hazırlığını saxlamaqla hər hansı bir ehtimalı istisna etmir, lazım gələrsə, təhlükənin qarşısını almaq, hərbi və strateji məqsədə nail olmaq üçün dərhal tədbirlər görəcək".

Belə bir şəraitdə Yaponiya hökuməti hərbi-sənaye kompleksinin keyfiyyətcə inkişafı və silah ixracının genişləndirilməsi üçün yeni strategiya hazırlamağa başlayıb. Bu barədə "Kyodo" agentliyinin yaydığı məlumata görə, hərbi texnikanın xaricə tədarükünə qoyulan məhdudiyyətlərin aradan qaldırılması iqtisadiyyatın bu sektorunun biznes, o cümlədən kiçik və orta sahibkarlar üçün cəlbediciliyini artırmaq məqsədi daşıyır. Yeni strategiyanı əks etdirən sənədlərin 2025-ci ildə dərc olunması gözlənilir.

**Hindistan qoşulmayacaq...**

Xatırladaq ki, Yaponiyada uzun müddətdir silah ixracına faktiki qadağa qoyulmuşdu. Bu da ölkənin özünümüdafiə qüvvələrini hərbi-sənaye kompleksinin yeganə müştərisinə çevirmişdi. Bu, müvafiq bazarın həcmini və cəlbediciliyini kəskin şəkildə məhdudlaşdırır və bir çox şirkətlərin oradan uzaqlaşmasına səbəb olurdu.

Bütün bunlara rəğmən ABŞ və Yaponiyanın müttəfiqləri yeni ittifaqın- "Asiya NATO-su"nun perspektivlərinə şübhə ilə yanaşırlar. Məsələn, Hindistanın xarici işlər naziri Jaişankar Yeni Dehlinin Yaponiyanın yeni Baş nazirinin mövqeyi ilə razılaşmadığını söyləyib və Hindistanın ittifaqlara qoşulmadığını vurğulayıb. Belə bir şəraitdə, "Asiya NATO-su"nun yaxın perspektivdə yaradılması real görünmür.

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**"Yeni Azərbaycan" qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

"Azərpoçt" MMC PDM- 0125984955, 0552004544
"Azərmətbuatyayımı" ASC - 0124411991, 0124404694
"Səma" MMC - 0125940252, 0503336969
"Pressİnform" MMC - 0703400100, 0504560835
"Qaya" MMC - 0125667780, 0502352343
"Qasid" MMC - 0124931406, 0124938343
F.Ş.Ruhid Hüseynov - 0124349301, 0505357898
"Ziya LTD" MMC - 0124977696, 0503067744

6 aylıq abunə - 79,20 AZN
12 aylıq abunə - 158,40 AZN







Hər il noyabr ayı bütün dünyada butik şəbəkələrdə, böyük elektrotexnika mağazalarında böyük endirimlərlə yadda qalır. Bu ayda həm Beynəlxalq Shopping Günü, həm də "Black Friday" adlandırılan "Qara Cümə" günü münasibətilə qlobal ticari məkanda böyük endirimlər tətbiq olunur. İnsanlar bu endirimlərdən maksimum dərəcədə yararlanırlar. İslam dünyasında problemə çevrilən "Qara Cümə" günü dünya miqyasında daha da məşhurlaşır. Dinimizdə müqəddəs olan cümə gününün belə adlandırılması müsəlmanlara heç də xoş gəlmir, başqa sözlə, birmənalı qarşılanmır.

# "Qara cümə"nin xeyri...

## 50 ildən artıq yaşı olan ənənənin görünməyən tərəfləri

### İlk "endirim" - hər şey 5 sentə...

Endirimli ticarət ənənəsi Amerikada XIX əsrdə yaranıb. İri ticarət şəbəkələri Yeni il öncəsi böyük endirimlər edir, alıcıları stimullaşdırır və bonuslar, hədiyyələrlə mükafatlandırırdılar. Bunun banisi də 1852-ci ildə anadan olmuş Frenk Vulvort sayılır. Məhz endirim fikrini ilk dəfə o, irəli sürüb. Pensilvaniya ştatının Lankaster şəhərində kiçik dükanda satıcı köməkçisi işləyən qaradinməz oğlan qiymətləri aşağı sala bilmədiyi üçün əsəb keçirirdi. O dövrdə malların üzərində qiymət olmurdu və satıcılar hər müştəriyə bir qiymət deyirdilər. Bir dəfə satıcı, səfərdə olan Frenk bir fikrə gəlir. O, bütün mövsüm mallarını piştaxtaya düzür və yanına "Hər şey 5 sent" yazısını qoyur. Bu, ilk endirim idi!

### Nə üçün "Qara cümə"?

Uğur qazandıqdan sonra Frenk XX əsrin əvvəlində ilk pərakəndə satış şəbəkəsini qurur. 1951-ci ildə isə "Factory Management and Maintenance" jurnalı maraqlı tendensiya qeydə aldı. "Şükran Günü"ndən sonra işçilər sağlamlıqlarına görə icazə alır, əslində isə özlərinə 4 günlük istirahət ayırırdılar. Bunun səbəbi də dükanları gəzib endirimlərdən faydalanmaq idi.

Amma məhz "Qara Cümə" termini ilk dəfə 1966-cı ildə Filadelfiyada ortaya çıxdı. Bu terminin yaranması ilə bağlı iki versiya var.

Birinci versiyaya əsasən, "Şükran Günü"nün ertəsi yollarda böyük tıxaclar yaranıb. Dükanlara axın zamanı əzilənlər olub. Bu səbəbdən bu gün "Qara cümə" adlandırılıb. İzdihamlara görə ölənlərin olduğu da deyilir. Məhz eyni gün Filadelfiya polisi qeyri-adi tıxaclara və izdihama görə bu günü "Black Friday" adlandırıb.

İkinci versiya mühasibatlıqla əlaqəlidir. Bu gün mühasibat hesabatları təqdim edilib. Şirkətin ziyanı qırmızı, gəlirləri isə qara mürəkkəblə qeyd edilib. Endirimlər günündə gəlir çox olduğu üçün hesabatda qara rəng daha üstün olub.

Başqa bir iddia isə "Black Friday" günü dükanların qapılarını gün çıxmadan əvvəl açmalarıdır.

Səslənən bəzi iddialara görə, "Qara cümə"də müxtəlif mağazalarda kütləvi endirimlərin olması o demək deyil ki, satışda olan məhsullar tam olaraq istifadəyə yararlıdır.



### İstehlakçıların ən çox aldadıldığı gün...

Belə ki, böyük endirimlər mağazalara çoxsaylı alıcıların axışması ilə nəticələnir. Bu zaman endirimlə satılan məhsulların yoxlanılmasına fikir verilmir. Son nəticədə isə alıcılar "Qara cümə"də böyük endirim əldə etdiklərini hesab etsələr də, yararsız məhsullara pul xərcləyirlər.

### Alıcıların ən çox aldadıldığı gün

Sualımızı cavablandıran Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov "Yeni Azərbaycan"a açıqlamasında bildirib ki, "Qara cümə" günü bütün dünyada istehlakçıların ən çox aldadıldığı gündür: "Qara cümənin tarixi 18-ci əsrə gedir. 1952-ci ildə qara cümə günü təşkil olunan zaman satışda heç bir zərər olmamışdı, satıcılar bundan xeyir qazanmışdılar. Qara cümə günü əslində hüquqlarını bilməyən, marketoloqların tələsinə düşən insanların aldadıldığı gündür".

### Qüsurlu mallar satılır...

E.Hüseynov bildirib ki, ən keyfiyyətsiz, standartlara uyğun olmayan, istehsal zamanı qüsuru olan mallar bu gündə satılır: "Bu, ərzaq mallarında özünü büruzə vermir, çünki müəyyən partiya ilə buraxılan ərzaq malları standartlara uyğun olur, saxta mal olmur, yəni istehlakçını aldatmaq imkanı burada azdır. Sənaye mallarında, xüsusən də texniki avadanlıqlarda istehlakçılar daha çox aldadılırlar".

### Şikayətlərin məzmunu eynidir

Ekspert qeyd edib ki, insanlar aldıqları malın sonradan yararsız olduğunu görürlər. Qaytarmaq istədikdə isə mağaza malın "qara cümə"də alındığını bəhanə edərək malı qaytarmaqdan imtina edir. Qanunvericiliyə görə isə istehlakçının kassa çeki ilə malı qaytarmaq hüququ var: "İstehlakçılara məsləhət görürəm ki, "qara cümə" günü mal alanda sevinməsinlər, xüsusən mürəkkəb texniki vasitələr alanda satıcının yanında onun bütün düymələrini yoxlayıb işlək olduğundan əmin olsunlar".

***Yeganə BAYRAMOVA***

# Ölümsüzlük iksiri...

## Dəfnə yarpağının faydaları

**Xalq təbabətində və Şərq mətbəxində geniş istifadə olunan dəfnə yarpağının insan orqanizminə faydaları çoxdur. Dəfnə yarpağından müxtəlif yeməklərin, turşu və kompot, tomat və şərbətlərin hazırlanmasında istifadə olunur. Antioksidant, analgetik, iltihab əleyhinə xüsusiyyətlərə sahib olan dəfnə yarpağı kosmetika sektorunda da olduqca uğurlu təsirlərə malikdir. Belə ki, dəfnə yarpağı krem, sabun və şampun kimi məhsulların xam maddəsidir. Qeyd edək ki, dəfnə həmişəyaşıl ağacdır, yazda və qışda yarpağını tökür. Qədim Elladada Olimpiya Oyunları zamanı qalib idmançılar dəfnə yarpağından hörülmüş çələnglə mükafatlandırılırdılar. Dəfnə ağacı hər mövsümdə yaşıl qaldığı üçün Antik Yunan-Roma mədəniyyətində ölümsüzlük iksiri kimi qəbul edilib.**



### Saymaqla bitməz...

Dəfnə yarpağının çayı tənəffüs sisteminin üst orqanları xəstəliklərində istifadə olunur. Yüksək analgetik (ağrıkəsici) xüsusiyyəti olan dəfnə boğaz infeksiyalarına səbəb olan hüceyrələri azaldır və bəlğəmsökücüdür.

Ətirli yarpaqlar şoraba, turşu, balıq və ətli xörəklərə xoş qoxu verir. Yeməklərdə dəfnə yarpağından istifadə olunması mədə-bağırsağa xeyirlidir. Dəfnə meyvələrindən əldə edilən yağ antiseptik xüsusiyyətə malikdir. Dəfnə yağı mikroböldürücü, sidikqovucu, tərlədici, spazmgötürücü və ağrıkəsici təsir göstərir. Onun saç tökülməsinə qarşı istifadə edilməsi tükləri möhkəmlədir, kəpəklənməni azaldır, saçlara yumşaqlıq və parlaqlıq verir. Dəri xəstəlikləri zamanı da həmin yağdan istifadə olunması faydalıdır.

Dəfnə yarpaqlarından hazırlanan sabunlar antiseptik və nəmləndirici təsirə malik olduğundan saçda göbələk əmələ gəlməsinə mane olur, saç diblərindəki məsamələri açır və tüklərin bərpasına kömək edir. Onun yarpaqları şəkərli diabet xəstəliyinə də xeyirlidir, qurudulmuş dəfnə yarpağı ilə təzəsinin arasında fərq yoxdur, tərkibcə eyni olur. Yarpaq xlorofillə zəngindir, tərkibində efir yağları, üzvi turşular çoxdur. Ağızda stomatitlər zamanı dəfnə yarpağı çeynəmək çox səmərəlidir. Sızanaqlardan xilas olmaq üçün dəfnənin antiseptik təsirindən istifadə olunması faydalı nəticələr verir.

### Rituallar zamanı da istifadə olunur

Qədimdə dəfnə yarpaqları uzun müddət müxtəlif rituallarda istifadə edilən sehrli bir maddə sayılıb. Dəfnə yarpağı evə xoşbəxtlik və müvəffəqiyyət gətirir. Dəfnə yarpaqları sərvət cəlb edilməsinə də kömək edir. Evə var-dövlət cəlb etmək üçün bir çox sadə və çox effektiv rituallar var. Məsələn, ezoteriklər hesab edir ki, pəncərənin yaxınlığında bir dəfnə ağacı qoymaq evə sərvət cəlb edir. Dəfnə ağacının təsirini artırmaq üçün yanına bir neçə zənginlik rəmzi sayılan əşyalar qoyun: zinət əşyası, pulqabı və s.

Yaxud da bir neçə dəfnə yarpağını pul kisəsinin ayrı bir cibində saxlayaraq pul cəlb edə bilərsiniz. Axşam isə bir ədəd dəfnə yarpağını yandırıb tüstünün ətrafa yayılması lazımdır. Bu, bəd-nəzərdən, pis auralardan qorunmağa köməklik edir.



### Dəfnə yarpağı ilə əmin-amanlıq...

Evin çiçəklənməsi və müvəffəqiyyət cəlb etmək üçün xüsusi ayindən istifadə etmək olar. Bunun üçün yeddi yarpaq dəfnə yarpağı və al-qırmızı sap lazım olacaq. Tam ay çıxanda, gün batdıqdan sonra yeddi dəfnə yarpağını al-qırmızı sapla bağlamaq lazımdır. Eyni sapla yarpaq dəstəsinə istənilən qəpik və ya sikkəni bağlayın. Beləliklə, hazırlanmış talismanı qapının üstündən asın. Bir ay sonra talismanı çıxarıb yarpaqları bütün otaqlarda pul saxlanılan yerlərə yerləşdirin. Dəfnə yarpaqlarından birini isə pulqabına qoymaq lazımdır.

***Yeganə BAYRAMOVA***

## *İdman*

### Erlinq Holann 65 avro cərimələyə görə həbs oluna bilər



İngiltərənin "Mançester Siti" klubunun futbolçusu Erlinq Holann həbs oluna bilər. AZƏRTAC xarici mətbuata istinadən xəbər verir ki, norveçli hücumçu 65 avro cəriməyə görə azadlıqdan məhrum edilmə təhlükəsi ilə üz-üzədir.

24 yaşlı forvard ötən il İsveçrənin Vaadt kantonunda yol hərəkəti qaydalarını pozduğu üçün cərimələnib. Bir ildir cəriməni ödəməyən futbolçu İsveçrəyə gedəcəyi halda, 1 günlük həbs olunacaq.

Qeyd edək ki, Erlinq Holann "Mançester Siti"də illik 20 milyon avro maaş alır.

### Amerikalı basketbolçu "Sumqayıt"da...

"Sumqayıt" heyətini yeni basketbolçu ilə gücləndirib. Klubun mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, komanda 25 yaşlı amerikalı oyun qurucusu Zayon Yanqı heyətinə qatıb. Onunla mövsümün sonuna qədər müqavilə imzalanıb.

Karyerasına 2018/2019-cu illər mövsümündə "Vestern İllinoys" klubunda başlayan basketbolçu daha sonra "Oklend Qolden Qrizzlis" və "Sautern Yuta Tanderbörds" kollektivlərində çıxış edib. Zayon son olaraq Gürcüstanın "Raşi Tbilisi" komandasında oynayıb.




### Güllə atıcılarımız Qran-Pridə komanda yarışının qalibi olub

Azərbaycanın güllə atıcıları Serbiyanın Smederevo şəhərində gənclər arasında keçirilən Qran-Prinin komanda yarışlarında uğurla çıxış ediblər. Azərbaycan Atıcılıq Federasiyasından AZƏRTAC-a verilən məlumata görə, 10 metr məsafəyə pnevmatik tapançadan atəşaçmada oğlanlardan ibarət milli komandamız qızıl, qızlardan ibarət kollektiv isə gümüş medal qazanıb.



Qeyd edək ki, eyni proqramın fərdi yarışlarında Vladislav Kalmıkov qızıl, Leyli Əliyeva gümüş, İmran Qarayev bürünc mükafata yiyələnib.

### FIFA-nın sabiq prezidenti: Dünya futboluna maraq azalıb



Böyük turnirlərdə komandaların çoxluğu səbəbindən dünya futbolu maraqsız olub. AZƏRTAC xəbər verir ki, bu fikri Beynəlxalq Futbol Federasiyasının (FIFA) sabiq prezidenti Yozef Blatter səsləndirib. Onun şərhini İsveçrənin "Watson" qəzeti yayıb.

"Avropada əvvəllər iki avrokubok var idi - biri yalnız çempionlar, digəri isə ölkə kubokunun qalibləri üçün idi. İndi 36 komandanın iştirak etdiyi Çempionlar Liqası, 36 komandanın qatıldığı Avropa Liqası, 36 komandanın iştirakı ilə keçirilən Konfrans Liqası, üstəlik Millətlər Liqası da var. 2026-cı ildə keçiriləcək dünya çempionatına 48 ölkə qatılacaq, əlavə olaraq 2025-ci ildə 32 komandanın iştirakı ilə klublararası dünya çempionatı da keçiriləcək. Bunları yalnız çoxlu pul gətirdiyinə görə alqışlayırlar", - deyə o bildirib.

Blatterin fikrincə, turnirlərin və iştirakçıların hədsiz çoxluğu futbola marağın azalmasına gətirib çıxarır.

Xatırladaq ki, 2026-cı ildə dünya çempionatı ilk dəfə üç ölkədə təşkil olunacaq. İyunun 11-dən iyulun 19-dək keçiriləcək yarışlara Kanada, Meksika və ABŞ ev sahibliyi edəcək.

### Bakıda COP29 çərçivəsində veloyürüş təşkil edilib

Bakıdakı Türkiyə Təhsil Qurumları və Azərbaycan Velosiped Federasiyasının (AVF) birgə təşkilatçılığı ilə COP29 çərçivəsində velosiped turu keçirilib.

AZƏRTAC xəbər verir ki, yürüşdən əvvəl Vətən uğrunda canından keçən şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Daha sonra Azərbaycan və Türkiyənin Dövlət himnləri səsləndirilib.

AVF-nin baş katibi Elnarə Musayeva ölkədə velosiped idman növünə dövlət səviyyəsində dəstəyin olduğunu vurğulayıb. Onun sözlərinə görə, bu qayğı nəticəsində bölgələrdə turlar təşkil edilir. Baş katib bildirib ki, velosiped sürmək insan həyatının sağlamlığı üçün çox önəmlidir.



Bakıdakı Türkiyə Təhsil Qurumlarının sədri Abdullah Yılmaz bu tədbirin COP29 çərçivəsində keçirilməsinin dünyaya bir mesaj olduğunu söyləyib. O, COP29 konfransına ev sahibliyinin Azərbaycan üçün 2024-cü ilin ən mühüm hadisəsi olduğunu deyib.

Bakı Veloparkında şagirdlər arasında təşkil edilən yürüş üç turdan ibarət olub. Məktəblilər velosiped sürməklə yanaşı, davamlı nəqliyyat və karbon emissiyalarının azaldılması kimi mövzularda maarifləndiriliblər. Velosipedin əsl nəqliyyat vasitəsi və nəqliyyatla bağlı karbon emissiyalarının azaldılması üçün ciddi həll yolu olduğu göstərilib.

Qeyd edək ki, ötən ay niderlandlı velosipedçi Colen Simone Şol COP29 çərçivəsində Azərbaycana səyahət etmişdi.


Təsisçi:
Yeni Azərbaycan Partiyası
Baş redaktor:
Alqış HƏSƏNOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
Ünvan: Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
598-37-76, 498-82-21
498-81-24, 498-19-84

İndeks: 67100
Lisenziya: N-B-317
Tiraj: 4809
Sifariş: 2681
"Kapital Bank" ASC-nin Nərimanov rayon filialı
h/h - 33080019443900419109
kod - 200093
VÖEN - 1500486601

Qəzet "Yeni Azərbaycan"ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilib.

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Elbrus Cəfərli